**SONA XƏYAL**

# ŞUŞA BAYRAQDARINI GÖZLƏYİR

**BAKI - 2011**

Redaktor:
***Mərziyyə Nəcəfova***
filologiya üzrə fəlsəfə doktoru

Sona Xəyal. Şuşa bayraqdarını gözləyir.
Bakı–"MBM"- 2011. 80 səh.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun böyük elmi işçisi, Azərbaycan Yazıçılar Birliyinin "İRS" komissiyasının sədri, 70-dən artıq kitabın (təlif və tərtib) müəllifi Sona Xəyalın bu kitabında pyeslər, xatirələr, şeirlər toplanmışdır.

ISBN 978-9952-29-043-5

© S.Xəyal, 2011
Bakı, "MBM"

# MÜƏLLİFDƏN

Allah-təala mənə ilham verdi. İllər boyu yazdım, yığdım. Çap imkanım olmadığı vaxtlarda belə ruhdan düşmədim. Həmişə Allaha üz tutdum, ümüd etdim ki, mənə qabiliyyət veribsə, yazmağa səbr veribsə, yəqin bir gün yazdıqlarımın çapı üçün imkan da verəcək...

Allahımdan çox razıyam. İlk şeirim 1987-ci ildə, ilk kitabım 1993-cü ildə çap olundu. 1995-ci ildə ikinci kitabımın çapından sonra aradan illər keçsə də, 2000-ci ildən yenə də müntəzəm çap olunmağa başladım. Bir neçə hekayə kitabımı, "Divan"dan seçmələr kimi "Qəzəllər"imi nəşr etdirib oxuculara çatdırdım. Əlyazmalar İnstitutundakı tədqiqat işlərimlə bağlı kitablarım nəşr olundu. Eləcə də Bakı-Abşeron ədəbi mühitində yaşayıb-yaradan şairlərin nəşrə hazırladığım şeir topluları işıq üzü gördü. Daha sonra "Müasirlərim" seriyasından yazdığım monoqrafiyalar çap edildi.

2008-ci ildə Azərbaycan Yazıçılar Birliyində bizə birillik prezident təqaüdü veriləndə, fikirləşdim ki, imkan varkən, kitablarımı çapa hazırlayıb nəşr etdirim. Oturub 3 hekayələr, beş şeirlər, 7 məqalələr kitabı tərtib etdim. Həmin təqaüdlə ondan artıq kitabım çap olundu. 2009-cu ilin iyununda Natəvan klubunda yaradıcılığımın 30 illiyi qeyd olunanda, baxdım ki, 2 kitab artıq 52 kitab olub.

Bir gün başımı qaldıranda gördüm ki, yaşıdlarım bir-bir köçür dünyadan. Öləndən sonra da çox olsa, ilinə bir kitabını çap etdirirlər. Fikirləşdim ki, bu qədər yazıb yığıram, məndən sonra kitablarımı çap etdirəcək kimsəm də yox, bir gün mən də bu yaşıdlarım kimi köçüb getsəm, nə olacaq? Çox düşündüm, özlüyümdə qərara gəldim ki, yazmağı saxlayıb, yazılmış kitabların çapı ilə məşğul olum. Özümə söz verdim ki, 50 yaşa kimi yaz-

dıqlarımın hamısını çap etdirməyincə təzə kitab yazmayım. Elə düşündüyüm kimi də elədim. Düzdür, yarımçıq kitabları tamamlamaq imkanım olmadı. Yalnız tam hazır kitabların çapı ilə məşğul oldum. Sadəcə bu iki ildə yazdığım məqalələri də müvafiq kitablara daxil etdim. Ustadımız Hacı Mailin 75 illiyini boş qarşılamamaqçün, Füzuli ilə bağlı məqalələrimi ayrıca kitab şəklində toplayıb, onun yubileyinə hədiyyə kimi nəşr etdirdim. 2009-cu ildə yaratdığım "Gənc qələm" ədəbi birliyinin üzvləri haqqında yazdığım məqalələri də onların şeir nümunələri ilə birlikdə "təzkirə" şəklində çap etdirdim. Üzvlərdən iki nəfərin kitabını də nəşrə hazırlayıb çapa verdim...

Bu ilin sonunda baxdım ki, həm də son zamanlar çap olunan, həm də nəzərimdən qaçıb məqalə kitablarına düşməyən yazılarım qalıb. Onları da ayrıca məqalələr toplusu kimi çapa verdim.

Artıq 74 kitabım nəşr olunub. Onlardan 49-u təlif, 25-i tərtib kitabıdır. "Müasirlərim seriyasından 18 kitabımı oxuculara çatdıra bildim. "Nəriman Həsənzadə" və "Şahid Həbibullayev" adlı kitablarımı çap etdirmək istədimsə də, onlar özlərinin çap etdirəcəklərini bildirdilər. Yarımçıq olan Salam Qədirzadə, "Sabir Rüstəmxanlı", "Musa Ələkbərli", "Bəxtiyar Məmmədzadə" və "Məşədixanım Nemət" kitablarımı tamamlamaq istədimsə də, vaxt imkan vermədi. Transliterasiya və tərtib etdiyim ondan artıq kitabı çapa hazırlamaq mümkün olmadı. Allah ömür versə, səhhət versə növbəti illərdə onları da tamamlayıb oxuculara çatdıracağam.

Arxivimi yığışdıranda, gördüm ki, o zaman yazdığım bəzi pyeslər, mənsur şeirlər, xatirələr də çap olunmaq istəyir. Onlardan da ələ gələnini bu kitabda topladım, kitablara düşməyən bəzi şeirləri də bura daxil elədim. Gec olduğundan kitaba ön söz yazdırmağa da imkan tapmadım və bu fikirlərimi də ön söz əvəzi yazdım.

# ŞUŞA BAYRAQDARINI GÖZLƏYİR
**( 3 pərdəli, 6 şəkilli)**

**İŞTİRAK EDİRLƏR:**

| | |
|---|---|
| Elşən | – 19 yaşında, tələbə |
| Mətanət | – 19 yaşında, tibb bacısı, Elşənin secgilisi |
| Çimnaz | – 21 yaşında, tələbə, Elşənin bacısı |
| Solmaz | – 44 yaşında, Elşənin anası |
| Zeynəb | – 45 yaşında , tibb bacısı |
| Yetər | – 41 yaşında, şəhid anası |
| Yunus | – |
| Ramiz | – Elşənin dostları |
| Saməd | – |

Qonşular, əsgərlər

**I pərdə I şəkil**

(*Pərdə açılır. Ana şəhid oğlunun şəkli qarşısında diz çöküb öz-özünə*)

**Ana:** Gözümün işığı oğul, evimin yaraşığı oğul. Necə qıydı fələk sənə? İyirmi il bəslədim, böyütdüm səni. Arzularım gözümdə qaldı, bala. Boxçaların bağlı qaldı, bala. İstəklin evlərdə qaldı, bala. Kəfənsiz, məzarsız dəyişdin dünyanı. Məzarın da olmadı ki, üstündə ağı deyim, göz yaşı töküm. Nəşin hansı torpaqlarda qaldı, bala. Kimə deyim dərdimi? Deyiləsi dərddimi? Evi yıxılsın baisin. Qapısı bağlansın namərdin. Getdin bala, daha bir də üzünü görmərəm, bir də səsini eşitmərəm... Can, ay bala. Sənə dəyən güllə mənə dəyəydi. Sənə gələn bəla mənə gələydi. Hər gün bu şəkildən baxırsan mənə. Bu qədər haraylayıram, ni-

yə bircə kəlmə danışmırsan, bala. Yuxuma da girirsən, susursan. Barı yuxularımda danış. (*göz yaşını başındakı kəlağayının ucu ilə silir, özünə təsəlli verirmiş kimi*) Bəlkə heç ölməmisən, bala. Bəlkə hardasa yaralanmısan, itkinsən. Kaş elə olaydı. Hər dəfə qapının zəngi çalınanda, elə bilirəm ki, möcüzə baş verəcək, qapını açıb səni görəcəyəm. Hər dəfə süfrədə payını saxlayram. Anan ölsün, ay bala. (*əlini dizinə çırpır*) Yox...yox... Daha getdin əlimdən. Yolun gedərgəlməz oldu. (*hönkürür, yaş onu boğur. Bu vaxt qızı Çimnaz içəri girir.*)

**Çimnaz:** Ana, bəsdir daha. Bəsdir, özünü üzdün. Bu dərd elin dərdidir. Təkcə sən deyilsən şəhid anası. Bax ətrafına, hər evdən şəhid var. Hamı dözür. Özünü ələ al. Bəlkə də heç Namiq ölməyib? Bir də gördün qapı döyüldü, açıb gördük ki, Namiqdir. (*gözünün yaşını silir*)

**Ana:** Eh, ay bala, mən də inanmıram. Amma yenə də dözmürəm. Allah baisin evini yıxsın. (*Ayağa qalxır, şəkli divardan alıb öpür, yenidən asır.*) Evin yxılsın fələk! Necə qıyırsan bu cavanlara? İlahi, bəs deyilmi bu qədər zülm, bu qədər ah-nalə? Bəs deyilmi bu qədər qan, bu qədər göz yaşı? Bəs deyilmi? Bütün millət yerindən, yurdundan didərgin düşüb. Qocalar, uşaqlar tökülüb küçələrə. Bəs deyilmi bu milləti sınağa çəkdiyin? Özün kömək ol, İlahi! Özün bu cavanlara rəhm elə. Axı, bunlar hələ bəylik paltarı geyinməyiblər, gəlin otağı görməyiblər. Mənim Namiqim kimi. (*əlini sinəsinə çırpır*) Yanıram, ay Allah, yanıram.

**Çimnaz:** Ana, bəsdir. Özünü ələ al. (*Gözünün yaşını silir, anasının qolundan tutub otağın aşağıküncündə qoyulmuş yemək stolunun yanına gətirir, oturdur.*)

**Ana:** Eh qızım, vallah, boğazımdan keçmir. Görəsən, balam öləndə ac idimi? (*ağlayır*)

**Çimnaz:** Ana, bəsdir, ağlama. (*Özü də ağlayır. Bu baxt qapının zəngi çalınır, ana diksinir.*)

**Ana:** İlahi, özün xeyir elə.(*Çimnaz qapını açır. Qardaşı Elşən daxil olur.*)

**Elşən:** Salam. Axşamınız xeyir. (*anasının üzünə baxır*) Yenə

də ağlayırsan? Deməmişəm sənə ağlama? Şəhid anası ağlamaz. Oğullar ona görə şəhid olur ki, analar, bacılar ağlamasın. Ağlama, ana, Namiqin ruhu inciyər. Qorxma, onsuz da onun qanı yerdə qalmayacaq. Onun əvəzində yüzlərlə erməni öldürəcəyəm. Görərsən, ana.

**Ana:** Öldürəcəksən? Sən?... Yoxsa, sən də gedirsən? Hə, gedirsən?... (*İntizarla gözünün içinə baxır.*) Yox, oğlum, istəmirəm. Getmə, bala. Yox, səni buraxmaram. Biri əlimdən gedib, bəsdir. Səni qoymaram. Ümüdüm, pənahım sənsən, bala. Sən də getsən, lap ölərəm. Yox-yox...(*ağlayır*)

**Elşən:** Elə demə, ana. Ev var ki, beş oğul verib cəbhəyə. Mən getməsəm bəs kim gedəcək? Namiqin 40-nı gözləyirdim. Daha getmək vaxtıdır, ana. Qorxma, mən ölməyəcəyəm. Namiqin intiqamını alacağam. Baxarsan, ana, torpaqlarımızı düşmən tapdağından xilas edəcəyik. Qələbəylə qayıdacağam. Amma sən ağlama. Analar ağlayanda, oğullar məğlub olur. Ağlamayın. (*Çimnaza dönüb*) Mən gələnə kimi Çimnaz sənə həm qız, həm oğul olar. İndi qızlarımızın oğulları əvəz edən vaxtıdır. Amma mən mütləq qayıdacağam. İndisə mənim çantamı yığın. Sabah yola düşürəm.

**Ana:** (*ayağa qalxır*) Nə dedin? Elə sabah?..

**Elşən:** Hə, ana, sabah. Qorxma, salamat qayıdacağam.

(*Ana ürəyini tutub özündən gedir. Çimnaz tez su və dərman gətirir, köməkləşib onu özünə gətirirlər*).

**Çimnaz:** Gərək deməyəydin. Bilirsən ki, xəstədir.

**Elşən:** Heç nə olmaz, Çimnaz. Şəhid anaları dözümlü olur.

(*Qapının zəngi çalınır, Yetər içəri girir*).

**Yetər:** Axşamınız xeyir. (*Solmaza baxır*) Solmaz bacı, gözümə bir təhər dəyirsən, olmasın azar?

**Solmaz:** Ay Yetər, mənim sağalan vaxtım olacaqmı? Ay Yetər, kim də bilməsə, sən bilirsən, niyə soruşursan?

**Yetər:** Ay Solmaz, bu bizim bəxtimizin yazısıdır. Bir mən deyiləm, bir sən deyilsən. Hamının ürəyinə dağ çəkilib. Bala dağından böyük dağ olmur, ay Solmaz. Neyləmək olar, Allah bilən məsləhətdir. Dərddir verib, çəkməliyik.

**Elşən:** Yetər xala, şəhidlik fəxarətdir, siz niyə onu belə böyük dərd hesab eləyirsiniz?

**Yetər:** Ay bala, sən uşaqsan. Hələ beynin qandır. Övlad dağının nə olduğunu bilə bilməzsən.

**Solmaz:** Dözə bilmirəm, ay Yetər, bütün gecəni gözümə yuxu getmir, səhəri dirigözlü açıram. (*ağlayır*)

**Çimnaz:** Ana...(*onu sakitləşdirməyə çalışır*)

**Yetər:** Özünü ələ al, ay Solmaz, uşaqların var.

**Solmaz:** Ay Yetər, belə də dərd olar? Biri gedib əlimdən bəs deyil, indi bu da getmək istəyir.

**Yetər:** (*Elşənə baxır*) Doğrudan?.. Yox, bala, elə eləmə. Getmə, oğul, anan yazıqdır.

**Solmaz:** Gözümü ona dikmişəm, ay Yetər. Daha kimin var?

**Elşən:** Niyə elə deyirsən, ay ana, bəs Çimnaz? Vallah, mənim kimi on oğula dəyər. (*qalxır, getməyə hazırlaşır.*) Mənim görməli işlərim var...

**Solmaz:** Ay bala, ay bala...(*qapıdan çıxan Elşənin arxasınca sızıldayır, üzünü Yetərə tutub*) Ay Yetər, bilirəm, dediyindən dönən deyil. Deyibsə, gedəcək.

## I ərdə II şəkil

(*Qospital, palatalardan birində iki xəstə çarpayıda uzanıb. Mətanət daxil olur*)

**Mətanət:** Bağışlayın burada Kəyan adında əsgər var?

**Kəyan:** (*başını qaldırır, təəccüblə baxır.*) Siz kimsiniz?

**Mətanət:** Mən o biri şöbədə işləyirəm. Bizim qohumlardan şəhid olan var, sizinlə eyni hərbi hissədə döyüşüb. Onun ölümü haqqında cürbəcür fikirlər söyləyirlər, ata-anası çox narahatdır. (əlindəki şəkilləri ona uzadır.) Adı Mirəlidir, Maştağadandır, bəlkə tanıyarsınız?

**Kəyan:** (*şəkillərə baxa-baxa, başını tərpədir, xeyli sükutdan sonra*) Bah, gör necə oğullar itirdik!..

**Mətanət:** Siz Mirəlini yaxşı tanıyırdınız?

**Kəyan:** Dayanın, indi hər şeyi əvvəldən-axıra kimi danışaca-

ğam. (*bir qədər sükut edir, dərindən köks ötürür, gözlərini bir nöqtəyə dikib danışmağa başlayır.*) Bizim batalyon Füzulinin Şəkərcik kəndində məktəbdə yerləşirdi. Mirəligilin rotası da sentyabrın axırında Qubadlıdan gəlmişdi. Biz, ümumiyyətlə, Divanallar və Dilağardı kəndlərindəki postlarda dururduq. Oktyabrın 28-də Xocavəndə hücum oldu. Həmin döyüşdə birlikdə iştirak etmişik. Noyabrda Arış və Məlikcan kəndlərindən Hadrut istiqamətində Şaiq postuna hücuma keçdik. Dekabrın 13-də Uryandağa, Peykanlının Kəpəz postuna hücum əməliyyatlarında da birlikdə iştirak etmişik.

Bayram günü bizə bildirdilər ki, Ağdama getməliyik. Gecə saat 3-də Füzulidən çıxdıq. 3 gün Xındırıstanda qaldıq, sonra Papravəndə gəldik. Növbəti döyüşdə Mirəli vuruldu.

**Mətanət:** Deyilənə görə ona vaxtında tibbi yardım göstərilməyib, ona görə...

**Kəyan:** Yox, yalan sözdür. Mirəli vurulan vaxt keçinmişdi.

**Mətanət:** Siz özünüz görmüşdünüzmü?

**Kəyan:** Bilirsiniz, mən batalyonda tibb sanitarı idim. Arxada gedirdim, hamıya göz qoyurdum. Rotamızda İmişlidən Əbülfəz adlı bir oğlan vardı. İrəlidə gedirdi, aramızda 5-6 metr məsafə olardı. Birdən İzzət qışqırdı ki, Kəyan, tez ol, Əbülfəzi vurdular. Çatanda artıq keçinmişdi. Bir qədər irəlilədikdən sonra Sirac qışqırdı ki, Mərdanı vurdular. Ona köməyə getdim. Birdən hiss elədim ki, çiynimdə nəsə isti bir şey gəzir. Əlimi apardım, barmağımın altında deşik hiss elədim, fikir vermədim, yaralıya tərəf süründüm. Bu vaxt bud nahiyyəsindən də yaralandım. Artıq ayağımı hiss etmirdim. Çantamdan sarğı çıxarıb Siraca atdım ki, yaralını sarısın. Hər tərəfimdə güllələr açılırdı. Şüurum özümə gələndə, uşaqlara dedim ki, məni kənara çəksinlər. Məni döyüş meydanından çıxardılar qayadan düşəndə hiss etdim ki, kimi isə aparırlar. Uşaqlardan biri dilləndi ki, yol verin, bu yaralıdır, qoy bunu birinci çıxaraq. Soruşdum ki, ölən kim idi? Dedilər ki, Mirəlidir. Artıq üçüncü itki idi ki, verirdik. Beynim dumanlandı. “URAL” maşınında bizi Qaradağlı kəndindəki qospitala gətirdilər. Onu bilirdim ki, maşındakıların əksəriyyəti bizim uşaqlar idi.

Deməli, yaralanan çox idi. İlk yardımdan sonra bizi Bakıya gətirdilər. (*susub dərindən köks ötürür.*) Heyf, gör kimləri itirdik! Necə igid uşaqlar idi!...

(*Mətanət Kəyanın sarsıldığını görüb söhbəti bitirir, təşəkkürünü bildirib çıxır.*)

## I pərdə III şəkil

**Mətanət:** Nə yaxşı gəldin, Elşən. Gör neçə vaxtdır ki, görüşmürük. Nə var, nə yox, dərslərin necə gedir?

**Elşən:** Eh, Mətanət, nə dərs, dərs yada düşür? Namiqdən sonra beynimdə ancaq bir fikir dolanır... Gəlişim o qədər də sevindirici deyil... (*sükut edir*) Amma yox, mən ölməyəcəyəm, mütləq qayıdacağam.

**Mətanət:** Hara, Elşən? Sən nə danışırsan? Hara gedirsən ki?

**Elşən:** İndi hamının gedəcəyi bir yol var... Başqa yolumuz varmı, Mətanət?..

**Mətanət:** Olmaya cəbhəyə gedirsən, Elşən? (*ürkək-ürkək üzünə baxır*) Hə, gedirsən?...

**Elşən:** (bir qədər susub) Gedirəm... Getməyə bilmərəm... Şuşa qalasına bayraq sancılmasa, Namiqin ruhu rahat olmaz. Bu yolda ölüm də olsa, getməliyəm.

**Mətanət:** Ölümdən danışma, Elşən. Yox, sən ölməyəcəksən. Yox...(*üzünü göyə tutur*) İlahi, özün saxla.

**Elşən:** Hə, hər gün məni beləcə dua edərsən. Təkcə məni yox, bütün döyüşçüləri.

**Mətanət:** (*yaxınlaşıb diqqətlə onun üzünə baxır.*) Dua etmək? Sadəcə dua etmək? Niyə ki, elə bilirsən mən güllə ata bilmərəm. Mən də səninlə gedəcəyəm.

**Elşən:** (*gülümsünür*) Afərin... Amma yox, mən ölməmişəm ki, sən cəbhəyə gedəsən. (zarafata salır) İşdi, əgər ölsəm, onda gələrsən intiqamımı almağa. Amma mən ölməyəcəyəm. Mütləq sağ qayıdacağam.

**Mətanət:** İlahi...(*öz-özünə səssiz danışır*)

***Pərdə enir***

## II pərdə

(*Döyüşdən sonra əsgərlər kazarmada oturublar, mübahisə edirlər.*)

**Yunus:** (*yumruğunu dizinə vurur*) Mən bilirəm, burada satqınlıq var. Əməliyyat baş tutmaya bilməzdi.

**Ramiz:** Sən Allah, Yunus, bəsdir, özünü ələ al, bir az sakit ol. Döyüşdə hər şey olur.

**Yunus:** Hər şey olur... Aparıb öz əlimizlə texnikanı, o cür oğulları verək düşmənə, gəlib oturaq ki, hər şey olur.

**Saməd:** Yəni, bizim uşaqlardan kimsə satqın çıxa bilər? Mən buna heç cürə inana bilmirəm.

**Ramiz:** Mən birindən şübhələnirəm.

**Yunus:** (*tez dikəlir*) Kimdən?

**Ramiz:** (*bir qədər fikirli*) Sonra deyərəm.

**Yunus:** Hər kimdirsə, çoxdankıdır, təcrübəsi var.

**Ramiz:** Mənə elə gəlir ki, könüllülərdəndir.

**Yunus:** Özü də yerlidir.

**Ramiz:** Bundan sonra gərək, tək-tək gələnlərin üstündə nəzarət qoyaq. Başqa yolumuz yoxdur...

**Yunus:** Ramiz, elə könüllülər var ki, burada...

**Ramiz:** Hər halda nəzarət lazımdır. (*Ramiz və Rövşən ayağa qalxırlar, Elşən içəri girir.*)

**Elşən:** Salam. (*yaxınlaşır, köhnə tanışlar kimi əsgərlərlə əl tutub görüşür. Hamı təəccüblə baxır.*) Niyə mənə belə baxırsız?

**Saməd:** Sən kimsən? Hansı hərbi hissədənsən?

**Elşən:** Mən?

**Ramiz:** (*astadan*) Yox bir mən.

**Elşən:** Bilirsiniz, təlimdən sonra bizim rotanı Beyləqana göndərdilər. Xahiş etdim ki, məni bura göndərsinlər.

**Ramiz:** Niyə, burda plov dəmləyiblər?!.

**Elşən:** (*tutulur, qaşları çatılır.*) Bu nə danışıqdır? Cəbhəyə plov yeməyə gəlirlər?

**Ramiz:** Bəs niyə gəlirlər? Qəhrəman olmağa? (*yaxınlaşıb lap olun qabağında dayanır.*)

**Elşən:** (*çaşır, sonra özünü toplayır.*) Hə, qəhrəman olmağa...

**Ramiz:** Belə de... Sən də qəhrəman olmağa gəlmisən... Gözünü çək, bala, plan dolub. Daha hər dığa öldürənə qəhrəman adı vermirlər.

**Elşən:** (*acıqla*) Sənə nə?

(*Uşaqlar xısın-xısın gülürlər, axırını gözləyirlər.*)

**Yunus:** (*irəli çıxıb əlini Elşənin çiyninə qoyur.*) İncimə, bizim Ramiz çox komediya oğlandır. O hamıyla zarafat edir.

**Elşən:** Bura zarafat eləməyə gəlmişik?... Onsuz da beş-altı ildir ki, zarafat edirik. Nəticəsi də göz qabağındadır...

**Yunus:** Eh dostum, nə yaxşı ki, Ramizin zarafatları var. Yoxsa işimiz lap çətin olar. Eybi yox, hələ təzəsən, birinci döyüşdən sonra başa düşərsən ki, zarafat adama necə lazım olur.

**Ramiz:** Yaxşı, qəhrəman, soruşmaq ayıb olmasın, sənin adın nədir? (*Elşən dinmir*) Hə, demirsən, demə, onda elə səni "Qəhrəman" çağırarıq. Bəlkə elə düşərli oldu...

**Yunus:** Ay Ramiz, qurtar, görürsən ki, zarafatdan xoşu gəlmir. (*yer göstərir, Elşən keçib oturur.*)

**Ramiz:** (*astadan*) Yunus, bundan ağlın nə kəsir? Qapalı adama oxşayır... Bəlkə də səmimidir, hə?..

**Yunus:** Bilmək olmaz, hər kimsə, ciddi adama oxşayır.

**Ramiz:** Gələndə hamı belə gəlir. (səsini ucaldır) Sonra adama elə tor qururlar ki, özün də afərin deyirsən.

**Yunus:** Yaxşı, Ramiz, eşidər.

**Ramiz:** Eşitsin də... Gözüm qorxub Yunus, (*bir qədər fikrə gedir, siqaret yandırır.*) Bax, niyə məhz bizim batalyona gəlib?

**Elşən:** (*ayağa qalxır, yaxınlaşır, Ramizlə üzbəüz dayanır, düz gözünün içinə baxaraq*) Nədən şübhələnirsiniz? Olmaya məni casusa oxşadırsınız?

**Ramiz:** (*başını aşağı salıb dərindən köks ötürür.*) Daha heç kimə inanmıram. İnanmıram... Dünənki döyüşdən sonra adam

öz-özündən də şübhələnir.

**Yunus:** Fikir vermə, Qəhrəman, dünənki uğursuzluq bizə çox yer eləyib. Ramiz ona görə yanıqlıdır. Onnan olsa, heç səni içəri buraxmazdı.

**Elşən:** (*əlini Ramizin çiyninə qoyur*) Qınamıram, qardaş, Ağdam satqınlığın ən dəhşətli nöqtəsidir. Çox igidlər udub burdan uzanan yollar. Müharibənin düyün nöqtəsi Ağdamdır. Məndən şübhələnirsən ki, niyə məhz bura gəlmişəm? Bax, elə bu düyünü açmağa gəlmişəm. Məndən əvvəl qardaşım Namiq gəlmişdi. Arzusu var idi: Şuşaya bayraq sancmaq!... Arzusu ürəyində qaldı. Qırxından sonra getdim hərbi komussarlığa... Namiq tez-tez yuxuma girir. Həmişə satqınlıqdan şikayətlənir... Deyir ki, özünkü gülləsindən gözlə özünü... Deyirsən ki, niyə məhz bura gəlmişəm?.. Tapacağam o satqınları. Mənə elə gəlir ki, o adam hardasa, buralardadr. Ürəyimə damıb ki, tapacağam onu.

**Yunus:** Tapsan, neyləyərsən?.. O saat güllələrsən, eləmi?

**Elşən:** Yox, mən bura təkcə qardaşımın qanını almağa gəlməmişəm. Amma bircə bilmək istərdim ki, onun meyidi hardadır? Eh, anam hələ də onun ölümünə inanmır.

**Ramiz:** Bəlkə hələ sağdır?

**Elşən:** Yox, ürəyim mənə xəbər verir hər şeyi. Namiq yuxuma girəndə də həmişə keçmişdən danışır.

**Yunus:** Deyirlər ki, ölülər hər şeyi bilir. Onların ruhu göylərdə olur, hər şeyi görürlər. Rəhmətlik nənəm deyərdi ki, ölü bizik, onlar diridirlər.

**Elşən:** Amma mən Namiqin arzusunu həyata keçirməyincə, ölməyəcəyəm.

**Ramiz:** Eh, Qəhrəman, biz hamımız bura bu məqsədlə gəlmişik. Amma aramızdakı satqınlar bizdən cəld tərpənirlər. Bilirsən, necə oğullar qurban gedib? Heç nədən. Yenə döyüşüb torpaq alasan, öləsən, dərd yarı. Bilərsən ki, nəyin uğrunda getdin. Məni yandıran da budur ki, heç nədən itiririk. (*Uşaqları göstərir.*) Görürsənmi?. Qardaş itirməyənimiz yoxdur. Hamımızın sinəsinə o dağdan çəkilib. Bəlkə elə dərddir bizi birləşdirən...

(*Növbəti döyüşdən sonra əsgərlər kazarmada*)

**Ramiz:** (*içəri girir*) Uşaqlar, Akifgili qospitala çatdırdıq, hər şey öz qaydasındadır. İndi Qəhrəman da gələr... Amma, Yunus, bu doğrudan da qəhrəmandır ha...

**Yunus:** (*tutqun ifadə ilə*) Elə Elçin də qəhrəmandı. Firuz da, Çingiz də... Hamısını heç nədən itirdik.

**Ramiz:** Mən deyəndir, Yunus. Yasərgilin üstündə nəzarət qoymaq lazımdır. Ehtiyatlı olun.s

**Yunus:** Lap qardaşım ola, Elçinin ölümünü bağışlamaram.

**Elşən:** (*daxil olur, uşaqlarla görüşür, Yunusla Ramizin arasında dayanır, fikirli-fikirli yerə baxır.*) Kim elədi, Yunus?

**Yunus:** (*köks ötürür*) Sakit ol, sonra danışarıq.

**Elşən:** Çox itirdik, Yunus, çox. Başqa cürə də eləmək olardı.

(*Bu vaxt Yasərlə Arif daxil olurlar)*

**Yunus:** (*hirsindən əsir*) Nə olub, nə xəbər var? Səhərdən harda itib-batmısız?

**Elşən:** (*Yunusu kənara çəkir*) Elə olmaz, Yunus, gözlə görək, sözlü adama oxşayırlar.

**Yasər:** (*yaxınlaşır onlara*) Bilirsən, Elşən, bizdə mühüm məlumat var. İki nəfər də şübhəli əsgər tutmuşuq.

**Yunus:** (*kənara*) Deyəsən, öz işlərini ört-basdır eləmək istəyirlər. (*Yasərə*) Hə, bəlkə sizə elə gəlir ki, Elçini onlar öldürüb?

**Yasər:** (*özünü itirir*) Yox... Hə... Bilmirəm...

**Elşən:** Gətirin onları, görək kimdirlər? (*Əsgərləri gətirirlər.*)

**Sərdar:** Ə, filosof, bu sənsən?

**Elşən:** Sərdar, sən hara, bura hara? (*qucaqlaşırlar*)

**Sərdar:** Necə yəni? Filosof güllə ata bilir, bioloq yox?

**Elşən:** Ay səni Sərdar, elə həmin Sərdarsan. Düzü, heç gözləməzdim ki, səninlə rastlaşa bilərəm. (*üzünü yoldaşlarına tutur*) Tanış olun, bir sinifdə oxumuşuq... Biologiyanı əla bilir. Tanımadığı cücü-mücü yoxdur. Elə ona görə ona bioloq deyirdik.

**Sərdar:** (*yanındakı əsgəri göstərir.*) Bu da bizim batalyon-

dandır. Özü də qonşu kənddəndir.

**Elşən:** Yaxşı, siz nə vaxt gəlmisiniz?

**Sərdar:** Sabunçu rayonu üzrə könüllü batalyon təşkil olunub. 138 nəfər də bizim kənddəndir. Güllücə kəndindəki məktəbdəyik. Soraqlaşdıq, dedilər ki, burada kənddən kimsə var. Amma heç ağlıma gəlməzdi ki, bu sən olarsan. O vaxt eşitmişdim ki, sizin batalyonu Beyləqana göndəriblər. bəs sən bura necə düşmüsən?

(*Elşənlə Sərdar söhbət edirlər.*)

**Yunus:** (*kinli-kinli Yasərə baxır.*) Yasərin gülləsi həmişə hədəfdən yayınır.

**Ramiz:** Ona görə də həmişə düşmən yerinə dosta dəyir.

**Elşən:** Yaxşı, uşaqlar, bəsdir, gedin istirahət edin. (*üzünü Sərdara tutur.*) Dünənki döyüşdən sonra, çox itki vermişik deyən, uşaqların qanı qaradır.

**Sərdar:** Özünüzü gözləyin. Burada vəziyyət yamandır. Bizim olduğumuz yerdə lap pisdir. Bizi görən gözləri yoxdur. Deyirlər ki, niyə gəlmisiz? Onsuz da nə onlar bizə güllə atır, nə də biz onlara. Biz onlarla dədə-babadan kirvə olmuşuq... Məsələ qaldırdıq ki, bizi başqa yerə göndərsinlər. Əvvəl qərar çıxartdılar, sonra nədənsə geri götürdülər.

**Elşən:** Ruhdan düşmək lazım deyil. Satqın bir olar, iki olar, yaxşı oğullar çoxdur burda.

**Sərdar:** Bizi bura gətirən kimlərdir? Nəsə onlar şübhəli adama oxşayırlar. O gün Güllücəyə də gəlmişdilər.

**Elşən:** Güllücəyə? (*fikrə gedir*)

**Sərdar:** Yaxşı, filosof, axşam düşür, biz gedək, gecikərik. Hər halda əlaqə saxlarıq.

(*Çıxırlar, Ramizlə Yunus daxil olur, Elşən fikirli gəzir.*)

**Yunus:** Nə fikrə getmisən?

**Elşən:** Vəziyyət get-gedə pisləşir. Yasərgil Güllücəyə gedib-gəlirlər. Səncə niyə?.. Sərdarın dediyinə görə yerlilər erməni qo-

humlarına çox sədaqətlidirlər. Ona görə də Bakıdan gələn adamlara düşmən kimi baxırlar... Özü də o kənddə üç batalyon yerləşdirilib... Nə isə Yasərgilin üstündə gözün olsun.

**Ramiz:** O mənim boynuma.

(*Əsgərlər daxil olur, Elşən söhbəti dəyişir.*)

**Elşən:** Ağlıma bir fikir gəlib, gələn döyüşdə o priyomdan istifadə edərik.

**Yunus:** (*astadan*) Elşən, necə bilirsən, bəlkə uşaqları da bu məsələdən xəbərdar eləyək?

**Elşən:** Nə bilmək olar ki, bunların içərisində onların adamı yoxdur.

**Ramiz:** Elə uşaqlar var ki, inanmaq olar.

**Elşən:** Ehtiyatlı olmaq lazımdır. Kiçicik bir səhv növbəti döyüşlərdə yeni-yeni itkilər deməkdir.

**Yunus:** Hər halda inandığımız uşaqları yığıb danışmalıyıq. Tək üçümüz neyləyə bilərik?

**Ramiz:** Yunus düz deyir, Elşən. Uşaqlar yatandan sonra yığışarıq, məsləhətləşərik.

(*Hamı yatıb, bir neçə nəfər yığışıb söhbət edirlər.*)

**Yasər:** (*daxil olur*) Siz burda neylirsiz?

**Ramiz:** Ölənlərə dua oxuyuruq, satanlara da lənət...

(*Yasər çıxır.*)

**Elşən:** Hər halda elə eləməliyik ki, itki az olsun, imkan daxilində lap az. (*fikrə gedir.*)

**Ramiz:** Yəni qəhrəmanlıq eləmək lazımdır?

**Elşən:** Eh, Ramiz, sən Allah, zarafatı burax.

**Ramiz:** Adə, bunun doğrudan da qəhrəman olmaq fikri var. Gündə bir fikir gəlir beyninə. Belə getsə, deyəsən, doğrudan da Şuşaya bayraq sancacaq.

**Elşən:** Niyə də sancılmasın. Azərbaycan tarixən qəhrəman-

lar yurdu olub. Tale bu torpağı həmişə sınağa çəkib. Amma həmişə də sınaqdan uğurla çıxmışıq. İndi bizə nə olub ki, neçə ildir torpaqlarımız düşmən tapdağıdır. Biz istəsək, təkcə Şuşaya deyil, Xankəndə də, hətta Zəngəzura da bayraq sancarıq...

(*Aradan xeyli vaxt keçib. Yenə də döyüşdən sonra*)

**Yunus:** (*gəlib Elşənin yanında oturur.*) Nə olub. Elşən? Yenə də bikefsən. Deyəsən, sabahkı döyüş səni qorxudur.

**Elşən:** (*başını qaldırıb onun üzünə baxır.*) Yox, Yunus, evdən bərk nigaranam. Neçə aydır ki, məktub da yazmıram. Gecə yuxuda evimizi görmüşəm. Anam çox narahat idi.

**Yunus:** Bəlkə, bir-iki günlüyə evə gedəsən...

**Elşən:** Yox, irəlidə iki böyük döyüş var... Gecə danışarıq, qoy uşaqlar yığışsın.

**Ramiz:** (*Onların sözünə qulaq asır, gəlib Elşənin boynunu qucaqlayır.*) Vallah, oğulsan, Qəhrəman. Hər rotada bir beş-on nəfər sənin kimisi olsaydı, indiyə gedib çıxmışdıq Zəngəzura.

**Elşən:** E... Sən elə zarafat elə.

**Ramiz:** Yox, Qəhrəman, zarafat eləmirəm. Gərək nazirliyə yazaq, lap prezidentə yazaq, sənə milli qəhrəman adı versinlər.

**Elşən:** Mən neyləmişəm. Olsa-olsa bir-iki dığa öldürmüşəm.

**Ramiz:** Lap bu dərəcədə təvazökarlıq yox da... Qardaş, hamı bilir ki, sən əsil qəhrəmansan, sənədsiz-filansız qəhrəman.

**Yunus:** Məgər o vaxtlar Koroğlunun, Babəkin sənədinə yazılmışdı ki, bu qəhrəmandır? Elə əsl qəhrəman belə olur də...

**Elşən:** (*ayağa qalxır.*) Yaxşı, bəsdirin...

(*Uşaqlar yığışır. Sabahkı döyüş haqqında danışırlar. Ortada stol qoyulub, üstündə döyüş xəritəsi. Elşən karandaşla yolları Yunusa və Cavanşirə göstərir.*)

**Elşən:** Görürsən, Yunuc, sənin dəstən o tərəfdən gələcək, sizin uşaqlar o yerlərə yaxşı bələddir. Cavanşirin dəstəsi arxada kömək üçün bizi izləməlidir. Mənim dəstəm öndə gedəcək. Tex-

nika isə bizdən 100-120 metr irəlidə gedəcək. (*izah davam edir.*)

**Ramiz:** Qəhrəman yenə də plan cızır? Mən ölüm, bu adam yorulmaq bilmir e...

**Saday:** Sakit ol, Ramiz, zarafat vaxtı deyil.

**Ramiz:** Bircə bu müharibə qurtaraydı, qayıdaydıq evə. Görəsən, müharibədən sonra bu Qəhrəman nə işlə məşğul olacaq?

**Saməd:** O dahidir. Ondan yaxşı filosof çıxar, ya da şair. Hey düşünür, düşünür...

**Saday:** Deyirlər, həqiqətə vurğun insanın şair və ya dahi olması vacib deyil, o özü-özlüyündə həm şair, həm də dahidir. Bir də insanı insan eləyən elə onun düşüncəsi deyilmi?

**Ramiz:** Ə, Saday, sən də filosofluq eləmə də. Adam düşünəndə adam olur, bəs düşünməyənlər adam deyil?

**Saday:** Hansı bir filosofsa deyib ki, fikirləşirəm, deməli mövcudam, düşünürəm, deməli yaşayıram.

**Saməd:** Yaxşı, bəsdirin, indi vuruşarsız. Deyəsən, Qəhrəmangili qurtardılar axı..

**Cavanşir:** (*Samədə*) Bizim dəstəni yığ, gedək, sabaha hazırlaşmaq lazımdır.

**Yunus:** Ramiz, bizim uşaqları da səslə, yığışın, gəlirəm.

**Ramiz:** A qardaş, sabaha hələ bir sabah var. Vallah, bu Qəhrəman yaman inqilab eləyir burda. Nolub ə, həmişə bəyəm gecədən döyüşə hazırlaşırdız? Mən ölüm, Yunus, səhər yığışarıq.

**Elşən:** Ramiz, intizamı pozma!

**Ramiz:** Baş üstə! (*kənara*) Öldürdü bu intizam bizi.

**Saday:** Milləti intizamsızlıq öldürdü, bunu da intuizam...

**Elşən:** Yunus, uşaqları başa salın, bizim gedən yerimiz var.

**Yunus:** Xeyir ola, hara belə?

**Elşən:** (*yaxınlaşır.*) Biz Güllüəyə gedirik. Çalışarıq tez qayıdaq. Hərə öz işində olsun. Uşaqların üstündə gözün olsun.

**Yunus:** Şər qarışıb, gecdir. Vacib getməlisiz?

**Elşən:** Nə olub. Yunus, sözlü adama oxşayırsan?

**Yunus:** Nəsə içimdə bir narahatlıq var. Elə bil nəsə olacaq.

**Saday:** Vəssəlam! Yunusun ürəyinə bir şey damdı, qurtardı. İndi əgər salamat gedib-qayıda bilsək..

**Elşən:** Heç nə olmaz, ağzını xeyirliyə aç. Nə var ki, Güllücə,

budur, bura deyil? O yolu döndün, görünür.

**Yunus:** Nə deyim, Allah amanında. Yenə ehtiyatlı olun.

**Elşən:** (*əlini onun kürəyinə vurur.*) Qorxma, Əzrayıl söz verib ki, mənə toxunmayacaq. (*gülür.*)

**Yunus:** Yaxşı, bəs heç demədiz axı, nöşün gedirsiz?

**Saday:** Axır ki, kökünə kimi öyrənməsə, olmaz... Yaxşı, icazə ver, gedək, gələndə deyərik.

**Elşən:** Bir elə şey deyil, Yunus, nəsə bir təhərəm. Güllücədə Sabunçu rayon batalyonu yerləşdirilib. Yığılma batalyondur, Maştağadan da xeyli adam var. Gedirəm, uşaqlarla görüşəm, bəlkə evdən bir xəbər öyrənə bildim. Həm də görək onların planı, məramı nədir? Bundan sonra güclü döyüşlər gözlənilir. Hardasa birləşmək lazım gələcək. Gərək indidən onlarla əlaqə yaradaq. Birgə işləməyin xeyri böyükdür.

**Ramiz:** (*arxadan*) Ə, vallah, erməni sənin başına bica yerə dollarlarla qiymət qoymur e... Oğulsan, vallah..

(*Hamı çıxır, hərə öz işinə gedir. Xeyli keçəndən sonra səhnəyə Yasər daxil olur, öz-özünə danışır.*)

**Yasər:** Bu Elşən lap ağ eləyib. Göz açmağa imkan vermir. Bütün planlarımız boşa çıxır. Belə getsə, gərək meydandan çıxaq. Onda da baş götürüb qaçmaq lazımdır. Yoxsa, onlar məni sağ buraxmazlar...(*var-gəl edir.*) Bu Arif də gəlib çıxmadı ki... Görəsən, Elşəngili indi haradadırlar?.. Yox, bu gün hər şey qurtarmalıdır. Sabahkı plan da baş tutmasa, biz batdıq.

**Arif:** (*içəri girir.*) Yasər, Elşən Sadayla Güllücəyə getdi.

**Yasər:** Elə ikisi?

**Arif:** Yox, maşında başqa uşaqlar da var idi, amma bilmədim ki, kimlərdir. Elə ikisini gördüm.

**Yasər:** (*qaşlarını çatır, birdən*) Getdik!

(*Bir azdan əsgərlər səhnəyə daxil olurlar.*)

**Ramiz:** Uşaqlar, Yasərlə Arif yenə də yoxa çıxıblar.

**Yunus:** Yəqin, sabaha yenə də bir əngəl hazırlayırlar.

**Samәd:** Siz Allah, bәsdirin. Bir yerdә yeyirik, içirik, bir yerdә yatıb-dururuq. Ölümә dә bir yerdә gedirik. Bir-birimizin haqqında belә düşünmәk nә dәrәcәdә doğrudur?

**Ramiz:** Samәd, sәn kәs, bilmәdiyini danışma.

**Samәd:** Uşaqlar, bәlkә siz hardasa sәhv elәyirsiz?

**Yunus:** Sәhvi sәn elәyirsәn, Samәd...(*fikrә gedir.*) Nә deyirsiz, deyin, Elçini Yasәr öldürdü. Özüm gördüm. Amma sübut elәyә bilmәdim. Oğul idi Elçin...(*susur.*) İndi dә onun qәsdinә durublar. İnanın, әgәr biz Qәhrәmanı qoruya bilmәsәk, gәrәk öz güllәmiz öz beynimizi göyә sovursun. Bayaqdan ürәyim narahatdır. Elә Qәhrmanın özü dә dalğın idi. Elә bil nәsә olacaq. Gәrәk getmәyәydilәr.

**Samәd:** Heç nә olmaz, yaxşı şey fikirlәşin. Çoxdan gediblәr, bir azdan qayıdarlar.

**Nazim:** Yasәrgili hara gedib?

*(içәri girir, işarә ilә Yunusu vә Ramizi kәnara çağırır.*)

**Yunus:** Elә biz dә bayaqdan onları axtarırıq?

**Nazim:** Qayıdanda gördüm onları. Ağaclığa girdilәr. Kimdәn әmr alıblar? Yaxşı, Qәhrәman hanı?

**Yunus:** Qәhrәman Sadayla Güllücәyә gedib.

**Nazim:** Güllücәyә? Orda nә var?

**Ramiz:** Bura bax, Yunus, ağlın nә kәsir, birdәn onlar da Güllücәyә gedәrlәr ha?..

**Nazim:** Hә, elә o yol Güllücәyә gedir.

**Yunus:** (*elә bil indi ayılır.*) Ramiz, tez ol uşaqları yığ, silahları da götürün. Nazim, maşın qapıdadır?

**Nazim:** Olmaya getmәk istәyirsәn?

**Yunus:** Tәkcә mәn yox, hamımız getmәliyik. (*dәrindәn köks ötürür, tәәssüflә*) Mәn bilirdim nәsә olacaq. Əclaflar, gör necә xәbәr tutublar. Kaş gecikmәyәydik. Qәhrәmana bir şey olsa...

**Ramiz:** Gedәk, Yunus.

**Yunus:** Nazim, Güllücәyә kәsә yol var?

**Nazim:** Var, amma...

**Ramiz:** Nə amma?...

**Nazim:** Heç, gedək.

**Ramiz:** (*Samədi görür əlində silah, kinayə ilə*) Hə, nədi, yoxsa yenə inanmırsan?

**Yunus:** Yaxşı, Ramiz, bəsdir, acığını onun üstünə tökmə. Gedir, qoy getsin.

**Saməd:** Yunus, and içirəm, əgər siz deyənlər doğru çıxsa, o Yasəri öz əlimlə boğacağam.

(*Gedirlər. Xeyli vaxt keçir. Uzaqlarda atışma səsləri eşidilir. Səhnəyə iki əsgər daxil olur.*)

**I əsgər:** Deyəsən, məsələ ciddiləşdi. Yunus bu dəfə Yasəri əldən buraxan deyil.

**II əsgər:** Lap yaxşı da eləyər. Kişi adamdır. Elə Elçin öləndə də nə qədər dedi, inanmadılar. Kim bilə ondan sonra kimlərə qəsd edilib. Mənim də ondan heç gözüm su içmirdi. Yunus uzaqgörəndir. Adama baxan kimi bilir ki, nə yuvanın quşudur.

**I əsgər:** Yaman gecikdilər. Qəhrəmana bir şey olmaya...

(*Səhnə arxasından səslər gəlir, hamı səhnəyə daxil olur. Yasərlə Arifi qolubağlı gətirirlər. Elşənin geyimi çiyin hissədən didilmiş vəziyyətdədir. Hamının üzündən nifrət yağır.*)

***Pərdə enir***

**III pərdə I şəkil**

(*Qospital. Kiçik bir otaqda tibb bacıları oturub*)

**Zeynəb:** Şərifovun vəziyyəti çox ağırdır. Bütün gecəni nəzarət etmək lazım gələcək. Səhərə qədər vəziyyətdən çıxsa, daha qorxusu olmaz.

**Mətanət:** (*köks ötürür*) Yazıq uşaqlar. Görəsən, nə vaxta kimi davam edəcək bu qırğınlar? Nə vaxta kimi oğulların qanıyla,

anaların göz yaşıyla suvarılacaq torpaq. Torpaq doyub qandan. Amma qəddar düşmənlər hələ də doymaq bilmir.

**Zeynəb:** Eh, qızım, hamımızın yaralı yerimizdir. Eh, ahla, göz yaşıyla işlər düzəlsəydi, nə vardı ki. Sən hələ təzəsən. Mən neçə vaxtdır ki, burdayam. Nələr görüb bu gözlərim, nələr eşidib bu qulaqlarım, dilimə gətirə bilmirəm, dilim-ağzım od tutub yanır. Deməyəndə də ürəyim partlayır. Amma yenə də dözürəm. Oğlum şəhid olandan gəlmişəm bura. Varım-yoxum bircə dənəmdi Zakirim. İndi niyə yaşasyıram, kiminçün yaşayıram, özüm də bilmirəm. Yenə bu yaralı əsgərlərə nə köməyim dəyər, dəyər. Yenə bu işimlə təsəlli tapıram... (*Susur, dərindən ah çəkir.*) Neçə gündür ki, sənə fikir verirəm. Elə bil ki, sən də kimisə itirmisən. Amma onun yoxluğuna özünü inandıra bilmirsən, hələ də axtarırsan.

**Mətanət:** Hə, Zeynəb bacı, elə bilirəm ki, bir möcüzə baş verəcək, o qayıdacaq.

**Zeynəb:** Qızım, mənim oğlum burda itkin düşüb, ona görə də mən məhz bu qospitala gəlmişəm. Bəs sən niyə buranı seçmisən? Gizli deyilsə, danış, qızım, dərd bölünəndə azalır. Sən kimi itirmisən?

**Mətanət:** (*Bir qədər tərəddüd edir.*) Elşənlə biz bir sinifdə oxumuşuq. Özündən böyük qardaşı Namiq keçən il şəhid oldu. Namiqin 40-ı çıxan kimi Elşən də hərbi komissarlığa müraciət edib, ön cəbhəyə getdi. Nə qədər elədilər, onu saxlaya bilmədilər. O da Ağdama gəldi. Axırıncı gün biz görüşdük. Dedim ki, məni də apar. Razı olmadı, dedi ki, hələ mən sağam. Nə vaxt ölsəm, onda gedərsən. Əvvəlinci aylar məktub alırdıq. Birdən-birə məktubların arası kəsildi. İki ay gözlədik. Sonra soraqlaşdıq. Bir xəbər ala bilmədik. Qospitallarla əlaqə saxladıq, həmin hərbi hissədən olan yaralılardan soruşduq. Dedilər ki, biz Elşən adında adam tanımırıq. Hərbi komissarlıqdan söz verdilər ki, axtarış aparacaqlar, cavab verəcəklər. Qonşumuzun oğlu iki günlüyə evə gəlmişdi. Məsələni biləndə dedi ki, axtarmayın, deyirlər yoxdur, deməli itkin düşüb. Orada ağır döyüşlər gedib, çox adam itkindir. Əlimizi üzdük. Mən də dözə bilməyib bura gəl-

dim. Yenə adam burda təsəlli tapır. (*göz yaşlarını silir.*)

**Zeynəb:** Neyləmək olar, qızım. Taleyin qismətidir.

**Mətanət:** Yox, Zeynəb bacı, o ölməməliydi. Deyirdi ki, mənə gülə batmaz. Mən ölməyəcəyəm. Azərbaycan bayrağını Şuşaya mən sancacağam. Namiqin bu arzusunu həyata keçirməsəm, ruhu məndən inciyər. Hər ikisinin arzusu ürəyində qaldı. Yazıq Solmaz xala az qalır dəli olsun. Çimnaz da onu heç cürə sakitləşdirə bilmir. Nədənsə mən onun ölümünə heç cür inana bilmirəm. Yuxuma girəndə, həmişə baxışında inam görünür. Nəsə elə bil mənə ümüd verir.

**Zeynəb:** Kaş yuxuların çin olsun, qızım. Allah arzunu ürəyində qoymasın. Kim bilir, bəlkə də tapa bildin onu... (ayağa qalxır) Gedim Şərifova baş çəkim.

(*Qapı döyülür, əsgər geyimində bir adam başını içəri salır.*)

**Elşən:** Bağışlayın, bir söz soruşmaq olar?

**Zeynəb:** Nə istəyirsən, oğlum, gəl içəri.

**Elşən:** (*daxil olur*) Bilirsiz, bu gün səhər yaralı yoldaşımızı çox ağır vəziyyətdə gətirmişdik. Dedilər, əməliyyat uzun çəkər. İndi bilmək istəyirik ki, cərrahi əməliyyatdan sonra onun vəziyyəti necədir?

**Mətanət:** (*çevrilib mat-mat onun üzünə baxır.*) Elşən!... Elşən?... Sən sağsan?... (*bir qədər irəli gəlir.*) Sağsan, Elşən?.. (*çiyinlərindən tutub silkələyir.*) Şükür sənə, İlahi.

**Elşən:** (*təəccüb içində çaşqın vəziyyətdə*) Mətanət?... Sən burda neyləyirsən?

**Mətanət:** Mən?...

**Elşən:** Demədim ki, sənin cəbhədə işin yoxdur? Niyə gəlmisən?... Mən ölmüşəm bəyəm?

**Mətanət:** (*gözlərindən yaş damlaları yanağına süzülür.*) Elşən, sən sağsan... Hə, sağsan...Mən bilirdim ki, sağsan...

**Elşən:** Necə bəyəm, sağ olmamalıydım?

**Mətanət:** Evdə hamı səni ölmüş bilir, Elşən. Tez ol, gedək, evinizə zəng vuraq. Solmaz xalanın daha səbri qalmayıb. Səni çox axtardıq, Elşən. Bütün qospitalları gəzdik. Sizin hərbi hissə-

dən olan yaralılardan soruşduq, gördüm deyən olmadı. Niyə məktub yazmırdın?

**Elşən:** Düzü, baş qarışıqdır, elə ağır döyüşlər gedir ki, heç məktub yazmağa vaxt da tapmırıq. Gündə-gündə çoxlu itkiər veririk. (*bir qədər fikrə gedir.*) Heç bilirsən necə oğullar itiririk...

**Mətanət:** Gedək, Elşən. Gedək, evinizə zəng vuraq.

**Elşən:** Yox, Mətanət. Sabah güclü döyüş gözlənilir. Qoy ondan sağ çıxım, sonra zəng vurarıq.

**Mətanət:** Axı, evdəkilər...

**Elşən:** Eybi yoxdur. Sabah zəng vurarsan, danışaram. (*zarafatla*) Söz verirəm ki, sabahkı döyüşdən sağ çıxacağam. Hə, mütləq sağ qalacağam. Axı, mənə güllə batmır.

**Mətanət:** (*Elə bil indi ayılır ki, Zeynəb onlara baxır.*) Zeynəb bacı, görürsünüzmü mən itirdiyimi tapdım. Siz də tapacaqsız. İnsan ümüdlə yaşayanda, Allah istəyini verir.

**Zeynəb:** Qızım, təki sən deyən olsun. Təki bütün itkin düşənlər tapılsın, mənim Zakirim də. (*ah çəkir.*)

**Mətanət:** Elşən, bəs niyə səni öz hissənizdən olan uşaqlar tanımırlar?

**Elşən:** (*bir qədər susur, qımışır.*) Hm, düzdür, ola bilər ki, tanımasınlar. Axı, rotada məni öz adımla çağırmırlar.

**Mətanət:** Elə niyə?

**Elşən:** Uzun söhbətdir. Sonra danışaram. İndisə gedək dostumun yanına.

**Zeynəb:** Olmaz, oğlum. Həkim deyib ki, onu narahat etmək olmaz. Sabah gələrsiz. Allah qoysa, bu gündən salamat çıxsa, sonrası yaxşı olacaq.

**Elşən:** Sabah mən döyüşdəyəm. Olmadı elə, oldu belə. (*yenə zarafata salır.*) İşdi ölsəm, deyərsiz ki, mən gəlmişdim.

**Mətanət:** Elə demə, Elşən, bəs Şuşa qalasına bayrağı kim sancacaq?

**Elşən:** Eh, Mətanət, mən ki, bunları belə görürəm, Şuşaya gedən yol hələ çox qurban istəyəcək. (*zarafatla*) Nə olar, mən ölərəm, bayrağı sən sancarsan.

**Mətanət:** Yox. Sən ölməyəcəksən. Birlikdə gedəcəyik Şuşaya. Lap Xankəndə, lap Zəngəzura. Yaxşımı, Elşən?...

## III pərdə II şəkil

(*Elşəngilin evi. Solmaz, Çimnaz və iki qonşu qadın oturub.*)

**Solmaz:** Eh, daha mən bundan sonra niyə yaşayıram? Gül kimi balalarım əlimdən getdi. Niyə məni öldürmürsən, İlahi? (*əllərini göyə qaldırır*)

**Çimnaz:** Ana, yenə başladın..

**I qonşu:** Solmaz bacı, sən Allah elə demə. Allaha xoş getməz, özü bilən məsləhətdir.

**II qonşu:** Uşaqların ruhu inciyər səndən.

**Çimnaz:** Ana, yadındadırmı, Elşən deyərdi ki, oğullar ona görə şəhid olur ki, analar, bacılar azad yaşasın. Onlar bizə görə şəhid olublar. İndi biz də Allahdan ölüm istəsək, onda bu dünyanı kim yaşadar?

**Solmaz:** Eh, qızım, elə hamınız təsəlli verirsiz. Amma ana ürəyindən heç kimin xəbəri yoxdur. Oğlu ölən analar bilər mənim dərdimi.

**Qonşu:** Bir az dözümün olsun, Solmaz. (*telefonun zəngi eşidilir, Çimnaz çıxır.*) Özünü ələ al. Bu qız da yazıqdır.

**Çimnaz:** (*səsi gəlir*) Eşidirəm, kimdir?...Mətanət, sənsən?...Danış...danış...eşidirəm...Nə dedin? Nə?...Aman Allah...Nə vaxt? Səsinə qurban olum, bacı, Allah səni xoşbəxt eləsin...Yaxşı, yaxşı... (dəstəkdə dud...dud... eşidilir, Çimnaz bir əlində dəstək, o birində telefon qaça-qaça gəlir.)

**Çimnaz:** Ana, ana, möcüzə. Elşən, Elşən...

**Solmaz və qonşular:** (*ayağa qalxırlar, bir ağızdan*) Nə Elşən, nə danışırsan, ay qız?

**Çimnaz:** Ana, Elşən sağdır....Sağdır. Mətanət Ağdamdan zəng vurub. (*birdən nəsə xatırlayır.*) Ana, gəlir ey, gəlir.

**Solmaz:** Kim gəlir, ay bala?

**Çimnaz:** Elşən gəlir. İndi gəlir. (*saata baxır.*) Aman Allah, vağzala getmək lazımdır. (*Tələsik geyinir, ayaq üstdə quruyub qalmış anasına*) Geyin də, ana. Geyin, gedək. (*bir qədər daya-*

*nır, fikirləşir*) Yox, sən getməsən, yaxşıdır. Mən Minayı götürüb gedərəm. (*üzünü bayaqdan bəri Mətanətin nə dediyini kəsdi-rə bilməyən qonşulara tutub*) Siz anamla qalın, biz tez gələcəyik.

**Qonşu:** (*elə bil indi ayılır*) Hara gedirsiz, bala.

**Çimnaz:** Dемədim, Elşən gəlir, vağzala getməliyik.

**Solmaz:** (*sanki indi anlayır.*) Aman Allah, nə danışırsan ay qız, özü gəlir? Sağ gəlir? (*Ürəyini tutur, hamının başı ona qarışır, birtəhər özünə gətirirlər, vaxt keçir.*)

**Elşən:** (*qapıda görünür*) Ana, ay ana, budur mən gəldim. (*qucaqlaşırlar, hamı ağlayır.*)

**Solmaz:** Oğlum, Elşənnn... (*özündən gedir.*)

**Çimnaz:** Elşən, sən sağsan? (*onu qucaqlayır*) Allaha şükür... (*sonra anasını görür.*) Aman Allah, yenə də... (*su üçün qaçır.*)

(*Qonşular xəbər tuturlar, hamı axışıb gəlir, məclis qurulur.*)

(*Səhərdir, ailə süfrə başındadır.*)

**Elşən:** Hə, mən axşam qatarıyla çıxmalıyam. Mənim çamadanımı yığın.

**Solmaz:** Yox, oğul, mən səni daha heç yerə buraxan deyiləm. Allah səni mənə ikinci dəfə verib. Yox, buraxmaram.

**Elşən:** Ana, sən nə danışırsan. Mən bircə günlük icazə almışam. Son günlər güclü döyüşlər gözlənilir. Mənsiz...

**Solmaz:** Sənsiz də keçinərlər... Getməyəcəksən... Yox, Elşən, getmə. Ümüdüm sənədir, bala. (*ağlayır.*)

**Çimnaz:** (*çamadanı hazırlayır.*) Ana, Elşən ölməyəcək. O, qəhrəman kimi qayıdacaq. Baxarsan, ana, mənim ürəyimə damıb ki, o qayıdacaq. (*gözünün yaşını silir.*)

**Elşən:** Sağ ol, Çimnaz... Anamdan muğayat ol. Gözləyin, mən mütləq qayıdacağam.

(*Axşam hamı yığışıb, Elşəni yola salırlar.*)

**Solmaz:** Deməli, gedirsən?

**Elşən:** Gedirəm, ana. Getməyə bilmərəm. (*yarızarafat-yarı-*

*ciddi gülə-gülə*) Şuşa qalası Azərbaycan bayrağını gözləyir. (*hamıyla görüşüb, o biri otağa keçir.*)

**Elşən:** (*Namiqin şəkli önündə dayanır, xeyli sükut içində baxır.*) Gözlərinə ölüm kölgəsi çöküb. Amma bu kölgənin arxasında, lap dərinlikdə bir işartı var... Namiq, yəqin, öləndə də gözlərində bu ümüd olub. Axı, sən inanırdın qələbəyə... İnanırdın...

**Namiq:** (*şəkil sanki dil açır.*) İnanırdım, Elşən. Çox inanırdım. Fəqət, qırıldı bu inamım, qırıldı, qardaş... Qulağım torpaqlarımızın satıldığı qiyməti eşidəndıə qırıldı... Gözlərim qardaş gülləsinə tuş gəlmiş cavanları görəndə qırıldı... Nəhayət, kürəyimdə öz gülləmizin ağrısını duyanda qırıldı inamım... İndi sən də gedirsən?... Getmə, qardaş, getmə!...

**Elşən:** Bilirəm, Namiq. Mənim də qulaqlarım çox şey eşidir, gözlərim çox şey görür. Amma getməliyəm...

**Namiq:** Yox, Elşən, anamızın ümüdü sənədir... Onu intizarda saxlama... Ağlar qoyma onu...

**Elşən:** Vətənin də ümüdü mənimkimilərədir, Namiq. Getməliyəm. Nə qədər ki, mənimkimilər ordudan kənardadır, satqınların sayı daha da çox olacaq. Mən təkcə düşmənə qarşı mübarizə aparmağa getmirəm, qardaş. Mən birinci mübarizəni özümüzdən başlamışam və davam etdirməliyəm. Onunçün də getməliyəm...

**Namiq:** Axı, sən uşaqsan. Mən də gedəndə sənin kimi düşünürdüm. Elə bilirdim ki, gedən kimi hamını düz yola çağıracağam. Hamı da sözümü eşidəcək. Mən çox çalışdım, Elşən...

**Elşən:** Orda inanılmış uşaqlar var, biz mübarizə aparacağıq, xainləri məhv edəcəyik, Namiq, sən arxayın ol...

**Namiq:** Mən də tək deyildim. Bir dəstə idik. Çox çalışdıq. Xainləri tapdıq da. Amma, mükafatımız güllə oldu. Getmə, qardaş. Heyifsən. Azərbaycanın gələcəyi sizə baxır. Sizinkimilər xalqa hələ çox lazımdır. ..

**Elşən:** Azərbaycan düşmənin olandan sonramı onun gələcəyinə lazım olacağam?

**Namiq:** Yox, Azərbaycan düşmənin olmayacaq. Azərbaycan düşmənin olsa, yer-göy qan ağlar. Ulu Tanrı göydən yerə daş yağdırar. Az qalıb, Elşən. Göylər bəla göndərəcək onlara. Nahaq

qan heç vaxt yerdə qalmayıb. Çox çəkməz, cəzalarına çatarlar. Amma sən getmə, heyifsən...

**Elşən:** Sən heyif deyildinmi? Şəhid olan minlərlə insan heyif deyildimi? Namusu, qeyrəti tapdanan qız-gəlin heyif deyildimi? Yox, Namiq, mən getməliyəm. Elə indi vaxtdır. Mütləq getməliyəm. Minlərlə sənin kimi arzusu ürəyində qalan oğullarımızın qanını almaq üçün getməliyəm. Düşmənlərin arzusunu ürəyində qoymaq üçün, Şuşaya bayraq sancmaq üçün getməliyəm.

**Namiq:** Nə tez belə böyüdün, Elşən?...Mən səni uşaq bilirdim... Get... Allah sənə yar olsun! Amma özünü gözlə. Qarabağa gedən yollar çox igidlər udub. Tarix boyu çox qan-qada görüb bu yollar. Çox tapdanıb. Tapdandıqca da məğrurlaşıb, yenilməz olub. Bu yerlərin öz qanunları var. Əvvəlcə gəl-gəl deyir. Düşmən gəlir. Susur, susur. Tapdanır, dözür. Qanda boğulur, dözür. Odda yanır, dözür. Birdən hirsli pələng kimi əsib-coşur, bir həmləyə dağıdır səfləri, vurub-yıxır, boğur düşmənləri qan içində. Yenə o gün gələcək, Elşən.

**Elşən:** Bəlkə o gün artıq gəlib çatıb, qardaş? Artıq Azərbaycan oyanıb. Mən artıq o qan dənizini görürəm. Əlimdə üçrəng bayraq o dənizi üzüb, Şuşa qalasına qalxacağam...

**Namiq:** Uğurlar, qardaşım, uğurlar... (*deyə-deyə şəkil cansızlaşır.*)

***Pərdə enir***

*1993*

## OYNAMAĞIM GƏLMİR AXI...
(*Maştağa folkloru əsasında*)

### İŞTİRAK EDİRLƏR:

Nailə – Sahibin həyat yoldaşı, 28 yaşında
Nisə – Nailənin anası, 52 yaşında
Bəyim – qonşu, 55 yaşında
Nigar – Nailənin qızı, 9 yaşında
Şahin, Şəhla, Xəyal Nailənin bacısı uşaqları
Bəyimin oğlu və əsgərlər

(*Pərdə açılır, Nailə oxuya-oxuya uşağı yatırdır.*)

**Nailə:** Lay-lay, lay-lay,
Balaca balam, lay-lay.
Gözəl balam, lay-lay.
Şirin balam lay-lay.

Çıxdım murad düzünə,
Allah baxdı üzümə.
Balama lay-lay deyim,
Yuxu getsin gözünə.

Lay-lay dedim balamçün,
Balamçün, bir danamçün.
Layla şirin nemətdir
Sözlərini qananççün.

Lay-lay dedim, eşidin,
Qızıldandı beşigin.
Sən yat, yuxun alginən,
Mən çəkərəm keşigin.

**Nailə:** (*Uşaq yatır, Nailə ərinin şəklini götürür.*) Eh Sahib, görəsən indi sən hardasan?... Nigar gündə mənə o qədər sual verir ki, bilmirəm onu necə ovundurum... Bircə tez qayıtsaydın...

(*Bəyim daxil olur, Nailə ayağa qalxır, şəkli yerinə qoyur.)*

**Nailə:** Xoş gəlmisən, Bəyim xala, gəl keç otur (*stul qoyur.*)

**Bəyim:** (*oturur, uşağa işarə ilə*) İncitmir ki, səni?

**Nailə:** Yox, ay Bəyim xala, atası gedəndən sakitləşib. Elə bil uşaq da nəsə hiss eləyir. Əvvəlki şıltaqlıqları yoxdur.

**Bəyim:** Yaxşı, Sahibdən bir xəbər var?

**Nailə:** O gün bir dostu məktub gətirmişdi.

**Bəyim:** Hə? Nə yazır? Barı orda vəziyyətləri yaxşıdırmı?

**Nailə:** Yazır ki, az qalıb. Bir azdan torpaqların hamısını alacağıq, qayıdacağıq. Bir də yazır ki, uşaqlardan nigaranam, tez-tez yuxuma girirlər.

**Bəyim:** Ata ürəyidir də. İndi onun yarı canı sizin yanınızdadır. Allah baisin evini yıxsın.

**Nailə:** Eh Bəyim xala, bircə bu müharibə tez qurtarsaydı. Yazıq Sahib heç Turalın üzünü doyunca görmədi.

**Bəyim:** Fikir eləmə, qızım, bu gün-sabah dava qurtarar, qayıdar ev-eşiyinə... Vallah hər gecə davada olanlara dua eləyirəm. Saat iki olur, üç olur, gözümə yuxu getmir. Gül kimi balalarımız didərgin düşüb evindən, ayrılıb uşağından. Bu da sözdür, Allah başına daş salsın fitnə-fəsad yiyəsinin.

**Nailə:** Ay Bəyim xala, heç bilmirəm nə yeyir, nə içir. Yeri soyuqdurmu, istidirmi? Yazır ki, hər şey yaxşıdır... Sahibi özünüz bilirsiz də nə təhərdi. Xörəyi bir az yubanan kimi əsəbiləşərdi, heç hövsələsi yox idi

**Bəyim:** Eh qızım, Həqiqət onu mənim qabağımda böyüdüb. Necə böyüdüb, mən bilirəm. Evdə onun bir sözü iki olmazdı... Amma yaxşı uşaqdı. Düzdür, bir az tərsliyi var idi, ərköyün böyümüşdü, amma söz başa düşəndi. Böyüyə-böyüyə ərköyünlüyü keçib-getdi. Amma inadkarlığı qalıb hələ.

**Nailə:** Elə ona görə batalyon təşkil olunan kimi getdi yazıldı... (*gözləri dolur.*).

**Bəyim:** Qızım, səbirli ol. Getməyi lazım idi. İndi düşmənə cavab verməyə elə inadkar, dəyanətli oğullar lazımdır. Bir də ki, daha az qalıb. Deyirlər ki, kəndlərin çoxu alınıb. Az qalıb ki, Ağdamı alalar. Özü də deyirlər ki, Ağdam alındı, elə bil ki, davanı biz udmuşuq...

**Nailə:** Nə deyim, ay Bəyim xala, təki sən deyən olsun. Dözməyinə bir təhər dözürük, təki gedənlər salamat qayıtsın... Atasız uşaq böyütmək çətindir. Hər gün Nigar orurur televizorun qabağında xəbərləri gözləyir. Hər dəfə cəbhədən göstərəndə axtarır, atasına oxşar bir əsgər görən kimi qışqırır ki, "ana, atamı göstərirlər".

**Bəyim:** Yaman günün ömrü az olar, qızım. Səbr elə. (*saata baxır*) Qızım, gözüm seçmir, saat neçədir?

**Nailə:** (*baxır, başını bulayır.*) ay Bəyim xala, yadımdan çıxıb heç saatı qurmamışam. Dayan radionu işə salım, saatı öyrənək. (*Radionu qurur. Bayatılar səsləndirilir.*)

Əziziyəm, daş ağlar,
Bu yerlərdə daş ağlar.
Bakıda sakinlərin
Gözləri qan-yaş ağlar.

Əzizim, xanimandır,
Dağılmış xanimandır.
Viranə xanimanda
Tökməyin qan, amandır.

(*Bu vaxt uşaqlar daxil olur, sakitcə oturub qulaq asırlar.*)

Əziziyəm düz görə.
Əyri qala, düz görə.
Nə ola bəd əməli
Yuxarılar düz görə.

Əzizim baxar indi,
Namərdlər baxar indi.

Qanun bizə çatanda
Qılıncın taxar indi.

**Diktor:** Əziz dinləyicilər, bununla da "Yanvar faciəsi" adlı verilişimiz sona çatdı. (*Bəyim gözünün yaşını silir, qalxıb gedir. Nailə onu ötürməyə çıxır.*)

**Xəyal:** Uşaqlar, gəlin oyun oynayaq.

**Şəhla:** Hə, gəlin "Şah-vəzir" oynayaq.

**Nigar:** Yox, onda çox səs-küy olar. Tural yatıb axı, oyanar...

**Şəhla:** Bəs onda neyləyək? Gedək, bizdə oynayaq.

**Nigar:** Yox, onda anam məni qoymaz, elə bizdə oynayaq.

**Şahin:** Gəlin, adama bir bayatı deyək. Birincisi hansı hərflə bitsə, o birisi həmin hərflə başlasın. Kim bilməsə, rəqs eləsin. Yaxşımı, uşaqlar?

**Xəyal:** Onda birinci sən başla.

**Şahin:** Mən aşiqəm gün üzün,
Bulud aldı gün üzün.
Mənə dağ çəkən düşmən,
Qara olsun günüzün.

**Xəyal:** Nədəndir taladılar,
Yurdumu taladılar.
Ən böyük dərd ocağın
Sinəmdə qaladılar.

**Şəhla:** (*bir qədər dayanır, sonra*) Uşaqlar, axı bu hərflə bayatı yoxdur.

**Uşaqlar:** (*bir ağızdan*) Oyna, oyna...

**Şəhla:** Oynamağım gəlmir axı... Qoy mən başqa hərflə gələn bayatı deyim.

Bu gün oldu tar, getdi.
Elə bil qatar getdi.
Dövran elə dəyişdi,
Vəfa, etibar getdi.

**Nigar:** İçimdə od qalandı,
Ah çəkdim, dünya yandı.
Bu elə bir oddu ki,
Cəhənnəm də yalandı.

**Şahin:** Bu hərflə də söz başlamır. Onda qoyun, mən də başqa hərflə gələnini deyim.

Əzizim, tağı bizdən,
Bu bəndin tağı bizdən.
Qoymarıq düşmən alsın
Bu Qarabağı bizdən.

**Şəhla:** Nahaq gəlmisən, yağı,
Çəkərik sənə dağı.
Qan gölündə üzsək də,
Vermərik Qarabağı.

**Nailə:** (*uşaqlara çay gətirir, kənara*) İlahi, özün kömək ol. Bu körpələrin də sözünün əvvəli, sonu Qarabağdır. Heç olmaya bunlara rəhm elə. (*çayları bir-bir uşaqların qabağına qoyur, uşaqlar "Sağ ol" deyirlər. Bu vaxt Turalın ağlamaq səsi eşidilir. Nailə gedib onu gətirir. Nailənin anası daxil olur, Nigar onu qucaqlayıb, o üzündən-bu üzündən öpür.*)

**Nigar:** Nənə, dünən də atamı göstərirdilər...

**Nənə:** Az qalıb, gözəl balam, bir azdan dava qurtaracaq, atan da gələcək. (*Başını sığallayır, sonra qızı ilə görüşür, Turalı qucağına alır, oxuyur:*)

Ay bu balanın atası,
Balam atasına çatası.

Ay bu balanın anası,
Anası bir dürr danası.

(*Uşaqlar maraqla qulaq asırlar. Şahin dəftərinə yazır.*)

**Nənə:** Ay Nailə, bu uşaq niyə gündən-günə geri gedir?

**Nailə:** Ay ana, az yeyir. (Bir qədər tərəddüd edir, başını aşağı salır.) son vaxtlar südüm azdır.

**Nənə:** (*Dərindən köks ötürür, yenə də oxumağa başlayır.*)

Ay ağ dana, ağ dana,
Gedib girər qəqdana.
Qəqdanda heçnə yoxdur,
Bəs nə yesin ağ dana?
Çörək yesin ağ dana,
Yarma yesin ağ dana,
Meyvə yesin ağ dana.

**Şəhla:** Nənə, bayaq oxuyurdun ha, nə oldu? Niyə yarımçıq kəsdin? Dalısını da de də.

**Nənə:** Nə, ay qızım?

**Şahin:** (*dəftəri açır*) Ay bu balanın...

**Nənə:** Hə, yadıma düşdü. Nə dedim, atası, anası, sonra...

Ay bu balanın əmisi,
Əmisi dərya gəmisi.

Ay bu balanın dayısı,
Dayısı meşə ayısı. (*bir qədər dayanır.*).

**Xəyal:** Nənə. Bəs xalası, bibisi?

**Nənə:** Dayanın bir, qoyun yadıma düşsün, deyərəm.

**Bəyim:** (*daxil olur*) Ay Nisə, xoş gəlmisən. (*Nailəyə*) Ay gəlin, bu balı götür, uşağın ağzına çəkərsən. Bütün qızartılar keçib gedəcək.

**Nisə:** Allah razı olsun, ay Bəyim, elə ondan toxdaq tapıram ki, sən yaxınsan. Allah səni qonşuluqdan əskik eləməsin.

**Bəyim:** Ömrün uzun olsun, ay Nisə, elə bilirəm ki, doğma balamdır...

**Nigar:** Ay nənə, nə oldu, de də...

**Bəyim:** Ay Nisə, bu nə istəyir?

**Nənə:** Bəyim, sən bilərsən, o uşaqlarçün oxuyuruq e...
**Şəhla:** Nənə əmini, dayını deyib, bibiylə xalanı bilmir.
**Bəyim:** Hə, bildim. (*oxuyur*)

Ay bu balanın bibisi,
Bibisi Sədri düyüsi.

Ay bu balanın xalası,
Xalası qazan qarası.

**Nigar:** Bəyim xala, xalamçün elə demə...
**Bəyim:** (*onu qucaqlayır.*) Aha, sən xalanı çox istəyirsən?
**Nigar:** Xalanı da çox istəyirəm, bibini də...
**Bəyim:** Ay şeytan. Doğru deyirlər ki, qız yuşağı şeytan olur.
**Xəyal:** Bəyim xala, bizə bir nağıl danışın da...
**Bəyim:** Yaxşı, bala danışaram.
**Hamı:** Ura...
**Bəyim:** Biri vardı, biri yoxdu. Allahdan başqa heç kim yoxdu. Günlərin bir günündə...
**Şahin:** (*onun sözünü kəsir.*) Bəyim xala, nə üçün bütün nağıllar "Biri vardı, biri yoxdu" ilə başlayır?

(*Bu vaxt qapı döyülür. Bəyimin oğlu ilə iki nəfər əsgər qapıda görünəndə hamının ürəyi düşür, təlaşla onlara baxırlar. Heç kim danışmır. Nailə taqətsiz halda yerə çökür.*)

***Pərdə enir***

*1994*

*"Paklıq" qəzeti, dekabr 2011.*

## GÜLƏK...YA DÜŞÜNƏK

### *DƏBDƏ OLAN*

– Yoldaş direktor, axır vaxtlar qızlarımız hərbi formaya meyl salıb, daha zər-xara paltarlar satışa getmir.

– Nə olar, bundan sonra zərli parçalardan yalnız kişi köynəkləri tikin...

### *ONUN ÖZÜNDƏN*

Tibb bacısı xəstəyə:

– Baş tibb bacısı dedi ki, xəstəxananın aptekində bu dərman yoxdur.

Xəstə:

– Bağışlayın, onu hardan tapmaq olar?

– Elə onun özündən.

### *XALQ ÜÇÜN İŞLƏYƏN*

– Görürsən də dostum, xalq üçün işləmək belədir, yuxarıdakıların hamısı mən gələndə ayağa dururlar.

– Eh, dost, elə o vaxt komblok da sənə belə "hörmət" edirdi də...

### *YALANÇILAR*

Bir yalançı sarıqlı əlini yanındakına göstərərək:

– Neçə aydır cəbhədəyəm. Lap dəstənin önündə gedirdim, erməni gülləsinin ağzı nəydi, mənə dəyə. Axırıncı dəfə çox güclü döyüş oldu, necə oldusa yaralandım. Huşumu itirmişdim deyə, bilmədim yaramı kim sarıdı. Müharibədir də... Ə, yoxsa inanmırsan?

– Niyə, inanıram, döyüş meydanında yaranı sarıyan elə mən idim də, - deyə ikinci yalançı cavab verir.

## *PULU PULLA ALIRLAR*

İşçilər kassiri dövrəyə alırlar:

– Deyirlər bütün idarələrdə maaş verilib. Bəs biz pulumuzu nə vaxt alacağıq?

– Bankdan pulu pulla alırlar, yığın verin, aparım verim, alım gətirim, - deyə kassir cavab verir.

## *KOMMUNİZMİN İKİNCİ FAZASI*

– Ay hacı. sən bir ağıllı adamsan, məni başa sal. Sosializm quruldu, arvadları yığdı tökdü tarlalara, tikinti meydanlarına, kişilərə də restoranda, çayxanada kef verdi. İndi sosializmi deviriblər, kişilər özünə tumar verib piştaxta dalında dayanır, qadınlar hərbi geyimdə güllə qabağına gedir. Görəsən, biz hansı quruluşda yaşayırıq?

– Məşədi, yəqin bu da kommunizmin ikinci fazasıdır...

*"Murovdağ" qəzeti. 12.02.93.*

## *YARADANLA SÖHBƏT*

Təkcə Sənin idi bu kainat. Ucsuz-bucaqsız okeanlar da, nəhayətsiz göylər də Səninkiydi. Səxavətliydin. Laciverd göyləri ulduzlara, Aya, Günəşə bəxş elədin, okeanları heyvanlara verdin. Sonra düşündün ki, dünyaya insan gərəkdir. Okeanların suyunu çəkib geniş çöllər yaratdın. Təbiətə insan gətirdin! Ona "sənin yerin bütün canlılardan yüksəkdir" dedin. Görməyə göz verdin, eşitməyə qulaq, düşünməyə idrak. Çox şey verdin ta kamilləşənə kimi.

Amma gözlədiyin olmadı. Kamil yaratdığın canlılar dağıtdı bütün yaratdıqlarını. Tərsinə yazdılar sənin bu yazdıqlarını. Özlərini hamıdan ağıllı hesab elədilər. "Ağıl yalnız bizə məxsus keyfiyyətdir" dedilər. Düşünmədilər ki, onlardan əvvəl yaratdığın heyvanlar onların elədikləri vəhşilikləri, ziyankarlığı eləməyib. Görə bilmədilər ki, ayaqları altında taptaladıqları qarışqalar

onların işlədiyindən çox işləyir. Bilmədilər ki, ağcaqanad öz nəslini artırmaq üçün məhz insan qanının gərəkliliyini onlardan əvvəl kəşf eləyib...

Özlərini filosoflar hesab edirlər. Materiyanınmı, yoxsa şüurunmu birinciliyi məsələsini ortaya atıb, yaratdığın varlıqları maddiyə və mənəviyə böldülər. Anlamadılar ki, Xaliq heç nəyi yarımçıq yaratmır, hər şeyi bütöv yaradır. Sonradan nadan insanlar onu parçalayırlar. Dərk eləmədilər ki, sən dünyanı yaratmısansa, maddini də, mənəvini də eyni vaxtda yaratmısan. Düşünə bilmədilər. Beləliklə, müxtəlif cərəyanlara ayrılıb, illərlə bir-birlərinə qarşı döyüşdülər. Müharibələr, inqilablar bir-birini əvəz etdi. Sən verən paltarı soyundurub, dünyaya yeni-yeni donlar geyindirdilər. Düşünmədilər ki, insan dünyaya necə gəlirsə, eləcə də dünyadan köçür. Hər yaranmış da eləcə. Əvvəli torpaq olanın axırı da torpaq olur. Sudan yaranan suya dönür, oddan yaranan oda qarışır. Dedilər insan dünyaya fərd kimi gəlir, sonra formalaşır. Bilmədilər ki, ana bətnində olan insan onların düşündüyü şüursuz materiya deyil, o canlıdır, şüurlu, ağıllı canlıdır. O, ananın qəzəbinə, ağlamağına, gülməyinə, hətta yediyi qidanın isti-soyuğuna da reaksiya verir. Bu dünyadakı haqsızlığa o da ana bətnində lənət oxuyur, o da danışır öz dilində, etiraz edir. O da bu dünyanın eybəcərliyinə gülə bilir, ağlaya bilir. Ancaq "kamil" insanlar onun harayını eşitmir.

İlahi, budur yaratdığın ən yüksək canlı. Bəlkə də yaratdığına peşmansan. Bəlkə elə ona görə qırğınları, fəlakətləri göndərmisən bizə. Bilirəm, daha dözə bilmirsən. Yaratdığın bütün gözəlliklər məhv olub gedib. İndi nə çöllərimizdə ətirli gül-çiçək var, nə zirvələrdə qartallr qıy vurur, nə də düzlərimizdə ceyran, cüyür gəzir. Hamısını insan dağıdıb. Sənin təbiətə şah yaratdığın canlı!

*"Paklıq" qəzeti, 22.02.94.*

# İTİRDİKLƏRİMİZ QAYİDACAQ ÖZÜMÜZƏ QAYIDANDA

Adına Odlar yurdu deyilən ana torpağım! Tarix boyu yadellilərin tapdağı olmusan. Ərənlərin illərlə uğrunda at belində qılınc çalıb. İgidlər qanıyla suvarılmısan. Yad torpaqlara qatılıb parçaların. Get-gedə kiçilmisən. Kiçildikcə böyüyüb dərdlərin. Çinar vüqarlı oğullar gedib uğrunda. İndi də davam edir bu!..Təkrar olunur tarix!

Beş ildir güllələnir dağın, daşın. Zəhərlənir havan, suyun. Köksündə göllər yaranır igid qanından, bir də anaların, bacıların göz yaşlarından. Heykəllər yaranır məzar daşlarından. Şəhidlərin artdıqca, böyüyür xiyabanların. Sinən üstdə məzarların artdıqca, düşmənin baxıb sevinir. “Torpaq, uğrunda ölən varsa Vətəndir”–deyib təsəlli tapırıq. Beş ildir övladların “qaçqın”, “köçkün” adı ilə sərgərdan gəzir. Noğulla, nabatla böyüyən körpələrin adi şəkər parçasına həsrət qalır. Düşmənlərin günü-gündən çoxalır. Həm öndən, həm arxadan zərbə alırsan. Öndəkini tanıyırsan, arxadakını tanımağa çalışırsan. Amma ayırd edə bilmirsən. İnanmırsan övladlarının xainliyinə. İnana bilmirsən! İnana bilmirsən koroğlular, babəklıər yetirən torpağın naxələf övladı olar. Heç bir ana övladının pisliyinə inana bilmir. Hətta qatı cinayətkar olsa belə. Sən də inanmırsan. İnanma! Qürurunu sındırma, Vətən! Qəhrəman oğulların biqeyrətlərdən çoxdur. İnan, Ana Vətən! İnan! Inananda bədbinlikdən uzaq olursan. Ümüd qələbənin yarısıdır!

Mən də inanıram! Dünən Şuşam, Laçınım gedəndə də inanırdım, bu gün Kəlbəcərim gedəndə də inanıram. Qayıdacaq hamısı. Türk övladı özünə qayıdanda, itirdiklərimizin hamısı qayıdacaq. Naxələflərin verdiklərini bir gün ər qeyrətli oğulların qaytaracaq. Qan bahasına, can bahasına, nəyin bahasına olursa-olsun mütləq qaytaracaq.

Başını dik tut! Bir şəhid dönəndə beş oğul olun qanını almaq üçün cəbhəyə yola düşür. Sil gözünün yaşını vətən! Ər oğullar yetirmisən. Qəribsəmə, torpağım! Al bir-bir qoynuna, gizlə ya-

ralı balalarını. Əvəzində yenilərini yetir, gələcək üçün, gələn sınaqlar üçün. Amma ağlama!..

Haçansa böyük bir gün gələcək, qələbə müjdəli, səadət soraqlı! O gün yürüşə çıxacağıq hamımızın dilində Azərbaycan himni, əli bayraqlı. Üçrəngli bayrağın dalğası bizi Laçına, Şuşaya, Xankəndə. Zəngəzura aparacaq. Həmin torpaqlarda üçrəngli bayraqlar dalğalanacaq. İnan o günün gələcəyinə. İnan!!!

*"Paklıq" qəzeti, 27.04.93.*

## AD GÜNÜN MÜBARƏK

Səni dünyaya gətirənlərə, bu adı verərkən səndəki işığı görənlərə, səni halal südlə, halal çörəklə böyüdüb, boya-başa çatdıranlara alqış! Səni suyundan, havasından gərək olanları əsirgəmədən, bağında, bostanında bitən nemətlərlə bəsləyən, dağında, düzündə sazla, sözlə gəzdirən, səni özündə azdıran, özünə qaytarıb sənə şeirlər yazdıran torpağa alqış!

İllərlə zəhmət çəkib sənə dərs verənlərə, səni düz yola istiqamətləndirənlərə, sənə ilk sözü yazdırandan sənə hər sözün nə olduğunu anladanlara qədər bütün müəllimlərinə alqış!

Sənin içindəki Allah eşqini, Əli sevgisini alovlandıranlara, səni islami dəyərlərlə zənginləşdirənlərə, səni 30 yaşında yaşıdlarının 60-da çatacağı kamilliyə çatdıranlara alqış!

Sənin bugünkü sən olmağında bütün əməyi keçənlərə, içindəki işığın üzünə çıxmasında rolu olanlara, səni Vətənçün həqiqi övlad kimi, vətəndaş kimi yetişdirənlərə alqış!

Səni mənə rast edən, mənə tanıdan, mənə sevdirən anlara və bizim ana-övld münasibətimizi yaşadacaq zamanlara alqış!

Nəhayət, 30 yaşında ömrün kamilliyini yaşayan, mənə "anam" deyən Rövşənə alqış!

Demirəm ki, əlli yaşa, yüz yaşa,
Deyirəm ki, elə bu cür düz yaşa.

Səni Azərbaycanımızın görkəmli filosofu, dahi şairi, dövrün ideal insanı kimi görmək arzusu ilə...

*"Real-Press" qəzeti, 22.07.09*

## BƏHRİ-TƏVİLLƏR

Nədü bu fitnə-fəsad eyləmisən, dərdi ziyad eyləmisən, sanki bir ad eyləmisən, bəlkə elə arzu-murad eyləmisən ki, qatasan aləmi-şeiri biri-birinə, həmi acını şirinə, ya da keçdimi girinə adam, ta biləsən cümlə tamam xam, a balam, bəsdi daha, kəsdi daha səbrimi saydıqların, şaiyə yaydıqların, dün də eşitdim yenə də zəng eləyib, bir nəfəri dəng eləyib, özüvi diltəng eləyib, çoxlu yalanlar demisən sən mənim haqqımda ki, guya gedirəm yerləri, həm göyləri mən seyr edirəm, hər nə düşür başıma ondan savayı heç nəyi görmür gözüm, kefini açmır sözüm, heç sözümdə yoxdu düzüm, tənqidə yoxkən lüzum, hey deyirəm ki, qəzəlin, mədh eləyib bizlərə göstərdiyin ol şah gözəlin heç kimə lazım dögü. Vallah, yığılaq, əyri otursaq da, nolar düz danışaq, ya hərə bir şer yazıb da yarışaq, onda baxaq hardadı gül, harda məkan eylədi bülbül, necə gör xar ilə sar baş götürüb çıxdı aradən, ayıraq şahı gədadən, füqəradən, bəzəyək təxtini, həm tacını, sonra ödəyək xacını, həm bacını, sən də yığışıb öz gözəlinlə, neçə divan qəzəlinlə, çəkəsən əl qəradən...(*12.08.98.)*

*"Paklıq"qəzeti, 27.04.93.*

## QƏLBİN ƏLACI

Ey məni xəlq eləyən Qadirü Sübhan, elədin ən uca insan, verərək qəlbimə iman, eləyib əqlimi ümman, edərək üstümü göy, altımı yer boyda məkan ki, gəzəm asudə özümçün, neçə rənglər də yaratdın gözümçün, sora dəftər və qələm etmisən amadə sözümçün ki, yazım şəninə min inci düzüm, ta səhər-axşam tutaraq Kəbeyi-ehramə üzüm, şükr eləyim nemətivə, cahü cəlalınla həmi şövkətivə, baqi olan qüdrətivə, ədlivə, həm izzətivə, mən nə yazım ki, yaraşa rəhmətivə kim, ürəyim azca da olsa sevinib rahət ola. Bəlkə gələ öylə zaman, versən aman, qismət ola yüz kərə vəsf eylədiyim Məkkəyə, həm Mərvə, Səfayə səfər eylim, nə günahım var isə batil edə tövbəyə meylim ki, olum qüslü kəfənlə ona mehman, dolanım Kəbəni əlan, yetirib yerinə gər haciyə vacib sayılan, dinə müvafiq qoyulan, dördü altıya vurulan haqq əməli, həm əbədi, həm əzəli bir olan Allahıma, yəni Sənə min həmdü səna ilə verim baci, olum haci, budur qəlbin əlaci... (*17.08.98.)*

## *S A R A L M I Ş   V Ə R Ə Q L Ə R*

## ÖMRÜN BİR İLİ

Yadımdadır, xəzan idi. Torpağın üstündə qızılı payızın son yadigarları saralırdı. Ağaclarda isə tək-tək yarpaq görünürdü. Onlar da qüruba enmiş günəşi xatırladırdı. Bir külək əsiminə bənd idilər ki, yerdəki xəzəllərə qarışsınlar. Payız son günlərini yaşayırdı.

Az sonra ağaclar tamam çılpaqlaşdı. Soyuq küləklər əsdi, bərk şaxta oldu. Nəhayət, qar dənələri göründü, birinci qar qonağımız oldu. Yadımdadır; qar ayağım altında xışıldayırdı. Yollar sürüşkən idi. Uşaqların qartopu oynaması ları da, hətta qar adamı düzəltmələri də yadımdadır. Hər yerdə olduğu kimi bizim evdə də yolka işıqları yandı. Şaxta baba gəldi. Yeni ili qarşıladıq.

Günlər gəlib keçdi. Qar əridi. Çayların daşan vaxtı idi. Çöllər yaşıl don geyindi. Lalə, bönövşə torpaqdan baş qaldırdı, hətta cırtdan boylu novruzgülü də. Yəqin ki, heyvanlar da qış yuxusundan oyanmışdılar. Yazın müjdəçiləri olan qaranquşlar da öz yuvalarını qurdular. ..

Bura qədər hər şeyi duyurdum. Ancaq bilmədim ki, ağaclar nə vaxt çiçək açdı, nə vaxt yarpaqladı. Bir də baxdım ki, ağacda qoz boyda almalar asılıb. Ağ tutun rəngini də görmədim. Ağacın altındakı sonuncu qara tut dənələrini süpürəndə, anladım ki, yaz yerini yaya verib.

Onu bilirəm ki, yay çox isti keçirdi. Hətta gecələr belə bürküdən nəfəs almaq olmurdu. Bir yandan da ağcaqanadlar... Meyvələr bir-bir dəydi, lakin yetişən-yetişən tut kimi məndən xəbərsiz ömrünü başa vurub getdi. Artıq həyətdəki əncir ağacının son meyvələri dərilirdi. Alma ağacı çoxdan boşalmışdı. Narlar ala-kal yeyilmişdi,-deyən ağac quru görünürdü. Bostanın meyvə-tərəvəzi də tükənmişdi. Təkcə daş kimi heyvalar üzübərk insanlar kimi şax durmuşdular...

Yerdə saralmış yarpaqlar görünürdü. Payız başlayırdı...

*04.10.80*

# İNSAN - İNAM

İnsan Alahın bu dünyaya göndərdiyi şah əsəridir. O Allahın ratdığı olsa da, həm də həyatın yaradıcısıdır. İnsanı həyatda hər şeyə bağlayan inamdır. İnamsız insan şüurlu şəkildə irəliyə doğru bircə addım belə ata bilməz, bircə risqə belə gedə bilməz. Körpə ilk addımını atanda da, ilk pilləni düşəndə də, ilk qapını açanda da, içində inam duyğusu olur. Az da olsa olur...

Məktəbli ilk dəfə sinfin qapısını açıb içəri girəndə də, ilk dəfə dərs danışmaq üçün əl qaldıranda da, müəllimin "kim gəlib yazar?" sualına lövhə qarşısına çıxıb əlinə təbaşir götürəndə də içində bir inam olur...

Müstəqil həyata qədəm qoyan gənc ali məktəbə sənəd verəndə də, işləmək üçün bir müəssisəyə müraciət edəndə də, ilk dəfə "sevirəm" kəlməsini deyəndə də içində bir inam olur...

Beləcə bütün həyat boyu hər addımda insan nəyəsə inanır. Ona görə də insana bir söz deyəndə, bir iş tapşıranda, ona etimad göstərəndə mütləq onda inam yaratmaq lazımdır.

İnamı yaratmaq çətin iş deyil. Bəs çətin olan nədir? İnamı yaratdıqdan sonra, onu yaşatmaq lazımdır.

Körpə ilk addımı atarkən onun əlindən tutmaq lazımdır. Eləcə də pilləkəni düşəndə, ilk dəfə qapı açanda, yoxsa inamı qırılar.

Məktəbli ilk dəfə sinfə girəndə müəllim onu təbəssümlə qarşılamalıdır. Eləcə də ilk dəfə dərs danışanda onun sərbəstliyi üçün imkan yaratmalı, lövhədə ilk dəfə yazı yazanda onu ürəkləndirməli, onda görəcəyi işə müsbət rəy yaratmalıdır. Yoxsa, uşağın inamı itər və sonralar dərs danışmağa, lövhəyə çıxmağa ürək eləməz.

Eləcə də savadlı gənclərin yerinə ali məktəbə "day-day"lıları qəbul eləməklə, gəncin tələbə olmaq ümüdünü qırmaq, işləmək istəyən gəncə "sən bacaran iş deyil" deyib, ruhdan salmaq, gənclərin təmiz məhəbbətini ayaqlar altına salıb tapdalamaq olmaz.

Bəli, inamı yaratmaq və yaşatmaq lazımdır. Birdən insan onu itirdi, onda necə? İtirilən inamı yenidən tapmaq olarmı? Elə çətini də budur...

*12.11.80.*

## XOŞBƏXTLİK

Deyirlər xoşbəxtlik insanın öz əlindədir. Bəs nə üçün onu götürmək olmur? Əl ki, insana yaxındır. Bəlkə əl deyəndə, insanın əməlləri nəzərdə tutulur? Axı, əməl üçün hərəkət lazımdır. Hərəkətsə, çox vaxt əlin köməyi ilə olur. Deməli, xoşbəxtlik insanın əlində deyil, insan əlinin əmələ gətirdiyi hərəkətlərlə yaranan əməldədir. Lakin əməl təkcə hərəkətlə yaranmır. İnsanın müsbət və mənfi cəhətləri də burada əsas rol oynayır. Deməli, insan mənəviyyatı – insan hərəkətləri – insan əməli – xoşbəxtıik!...

*29.12.80.*

## MƏN KİMƏ ACIYIRAM

Deyirlər, ucalmaq insanın öz əlindədir, insan istədiyi yüksəkliyə qalxa bilər, istədiyi mövqedə ola bilər. Hamı ucalmaq istəyir, amma bəziləri buna nail ola bilmir. Nə üçün? Bəlkə ucalığa gedən yolun keşməkeşindən qorxur? Qorxursa... Nə üçün? Bəlkə iradəsizdir? İradə! Doğrudan da onsuz adi bir risqə belə getmək olmur. Ucalıq isə insanın mənən qalxdığı zirvədir. Əlbəttə, iradəli insanın. Mən deyərdim ki, iradəsiz adamlar bəşəriyyətin ən yazıq hissəsidir. Həyatda məhz belələrinə acımaq olar...

*18.02.81.*

***

Kamandan çıxan ox hədəfdən yayınarsa, yenidən hədəfə tuşlamaq üçün onu geri qaytarmaq olarmı?..

05.04.81.

***

Ürəyimdə adsız bir qəbristan var, oranın sakinlərini təkcə özüm tanıyıram.

*16.04.81.*

***

Allahım! Axı, niyə məni bu qədər vüqarlı yaratmısan? Ağlım

kəsəndən bəri belə yaşamışam. İndisə, həyat məcbur edir... Axı, necə sındırım bu vüqarı? Necə?...

*29.08.81.*

***

Mənə elə gəlir ki, insanın hərəkəti onun özünə zərər verirsə, bu səhvdir, başqalarına zərərt verirsə, artıq bunu səhv adlandırmaq olmaz. Bu, günahdır...

*11.09.81.*

## ÖLÜM

Hamı həyəcan içərisində dayanıb, bu dəhşətli səhnəni seyr edir. Proqnoz aydındır – ÖLÜM!. Həyatın amansız qanunu... Qəribədir, insan dayanıb, onun nə vaxt gələcəyini gözləyir. İntizarla gözləyir... Gözümüz baxa-baxa insanı ölüm aparır. Onun yolunu kəsməkdə hamı acizdir. Cavan bir vücud! Artıq o həyatının son dəqiqələrini yaşayır. Sinəsi qalxıb-enir, gözləri yarıyumuludur. O danışmır, heç nə görmür, lakin, deyilənə görə, hər şeyi eşidir... Eh!...

*08.10.82.*

## QƏLBİN SƏSİ

Deyirlər, vicdn insan qəlbinin səsidir. Əlbəttə, bu səs qulaqla eşidilmir. Bəs onu necə eşitmək olar? Bunun üçün insanın xarakterinə, mənəvityyatına az da olsa, bələd olmaq lazımdır. Deməli, qəlbin səsi, insanın hərəkətlərindən, əməllərindən alınır. Amma səsi eşitmək, sözü oxuyub, fikri dərk etmək nə qədər asandırsa, hərəkəti başa düşmək, əməli "oxumaq" bir o qədər çətindir. Ona görə də insanları tanımaq çətindir. Çox çətindir!...

*15.12.82.*

## NEYLƏYİRƏM...

Neyləyirəm o ürəyi ki, sevincə gülməyə, kədərə ağlamaya, qəhərdən ağrımaya...

Neyləyirəm o başı ki, düşünməyə, yorulmaya, gərginlikdən ağrımaya...

Neyəyirəm o gözü ki, baxmaya, görməyə, nurunu kitablar üzərinə tökməyə, ağrımaya...

Neyləyirəm o ayağı ki, gəzməyə, yoxuşa dırmanmaya, eşişə düşməyə, yorulmaya, ağrımaya...

Neyləyirəm o ömrü ki, kimin üçünsə yanmaya, uzun-uzadı uzana, hissiz, duyğusuz, arzusuz, istəksiz, məhəbbətsiz ürək yaşada. Vəzndə ağır, qiymətdə yüngül yük daşıya...

*07.01.83.*

## ÇÜNKİ SƏN ANASAN

Bütün sevincimi qurban verərdim, bir qəmini qəlbindən silə bilmək üçün. Çünki, sən anasan...

Bütün dicliyimi, sakitliyimi hay-küy, hayqırtı, bağırtı içinə atardım, ürəyini bir an sakitləşdirmək üçün. Çünki, sən anasan...

Bütün arzularımı puç edərdim, sənin bir arzunu həyata keçirmək üçün, çünki sən anasan...

Həyatımdan, səadətimdən keçərəm, səni yaşatmaq üçün. Çünki sən anasan...

Bəlkə də mən səhv edirəm... Səhv etdiyimi bilə-bilə səhvlərlə dolu bir ömür sürərəm sənə görə. Çünki sən anasan...

*08.03.83.*

## OXŞAR TALEYİMİZ

Mən böyük məhəbbət sahiblərinə həmişə pərəstiş etmişəm. Mən onları ancaq əsərlərdə görməyə adət etmişəm. Əsərlərin bu qəhrəmanları mənim idealım olub. Sən yeganə adamsan ki, mənimçün həyati faktsan. Əvvəllər elə bilirdim ki, səhv edirəm. Səni kəşf edəndən sonra özümə haqq qazandırıram. Demək mənim kimi fikirləşən var. Yəqin ki, biz tək deyilik... Taleyimiz necə də oxşayır bir-birinə...

*22.03.83.*

## SUSMAQ HÖRMƏT DEYİL

Siz vüqarlısınız. Lakin mərdlik üçün təkcə vüqar kifayət deyildir. İnsanları başa düşmək lazımdır. Siz hamını yerli-yersiz danlayırsınız. Həmin adamları qarşınızda susmağa məcbur edirsiniz. Susmaq var, hörmətdir. Susmaq var, söyüşdür. Susmaq var, saymamazlıqdır və s. Yersiz ittihama qarşı susmaq hörmət ola bilməz.

Deyirsiz ki, yaltaq adamlardan acığınız gəlir. Yaltaqlığın əksi məğrurluqdur. Əgər yaltaqlıqdan acığınız gəlirsə, onda məğrurlara pərəstiş etməlisiniz. Bu isə mümkün deyil. Çünki siz tənqid olunmağa yox, tənqid etməyə, hətta təhqir etməyə öyrənmisiz. Heç vaxt düşünmürsüz ki, təhqir etdiyiniz adamların da mənliyi, qüruru var, vüqarı, ləyaqəti var...

*01.04.83.*

## SƏNİ XATIRLAYIRAM

Səni xatırlayıram, sənə bənzər bir insan görəndə. Səni xatırlayıram, hər dəfə evinizə gələndə. Səni xatırlayıram, o xəstəxananın qarşısından keçəndə...

Gözəl insan idin, əcəl aman vermədi. Çox yaşayardın, xəstəlik imkan vermədi. İndi soyuq torpağın altında yatırsan...

Nifrət edirəm xəstəliyə. Nifrət edirəm xəstəlikdən doğan ölümə. Mübarizə lazımdır, mübarizə... Düşünüb, səni xatırlayıram...

*28.06.83.*

## NƏNƏMƏ

Qara idi gözlərində bu dünya, yer, göy. Qara idi aylı, ulduzlu gecə də, günəşli gündüz də. Qara idi yaşıl bağlar da, çiçəkli bağçalar da. Qara idi gözlərində ağ daşdan tikilmiş evlər də, ətrafını bürümüş yaşıllıqlar da. Qara idi gözlərində...

Hər şeyi qara görən bu gözləri Yaradan vermişdi sənə. Bu gözlərlə doğulmuşdun, gəlmişdin işıqlı həyata. Bu gözlərlə yaşamışdın ömür boyu. Bu gözlərlə...

Bəzən şikəstliyin sənə ağır gəlmişdi. Bəzən gözlərinçün xəca-

lət çəkmişdin. Bəzən də gizli-gizli ağlamışdın. Hər şeyi öz rəngində görmək həsrəti ilə yaşamışdın...

Görə bilmədin qızılı Günəşi, Ayı, ulduzu. Görə bilmədin qohum-qonşu, övlad, nəvə üzü. Görə bilmədin həyatın bizə bəxş etdiyi nemətləri. Görə bilmədin, seçə bilmədin rəngləri. Bu dünyaya gəldiyin gözlərlə də o biri dünyaya köçdün. Ürəyində nisgil vardı, həsrət vardı. Hər şeyi öz rəngində görə bilmək həsrəti..

*23.02.84.*

## HƏQİQƏT

İnanıran ki, sən varsan. İnanıram ki, mənimlə daim yanaşı addımlayırsan. İnanıram ki, hər bir işdə mənə dayaqsan. İnanıram ki, ömrüm boyu mənlə olacaqsan. İnanıram.

İnanmasaydım varlığına, yaşaya bilməzdim. İnanmasaydım sənə, ucala bilməzdim. İnanmasaydım köməyinə, heç vaxt qələbə çala bilməzdim. İnanmasaydım sədaqətinə sənə arxalanmazdım. İnanıram...

Amma sənə inamayanlar da var. Səni görməyənlər, səni hiss etməyənlər də var. Sənin varlığına şübhə edənlər də var.

Mən iki şeyə daha çox inanıram!.. İnanıram varlığına varlığım kimi. İnanıram, vaxt olacaq hamı səni tanıyacaq, hamı səni görəcək, hamı sənə inanacaq. O vaxt mütləq olacaq, həqiqət! HƏQİQƏT!!!

*19.06.84.*

## BAXIRAM DÜŞÜNÜRƏM

Baxıram uca dağlara, görürəm başı qarlıdır. Düşünürəm, insan da belədir. Ucalığa gedən yolda baş ağarır.

Baxıram mavi sulara, ucsuz-bucaqszdır. Düşünürəm, arzular da belədir. İnsanın yaratdığı, yaşatdığı nəhayətsiz arzular.

Baxıram göylərə; gah günəşli, gah aylı, ulduzlu. Düşünürəm, illərim də belədir; gah qarlı-qışlı, gah allı-güllü--baharlı.

Baxıram yerlərə; min cür nemət yetirir. Düşünürəm, zənginliyi yerlərə insan zəhməti bəxş eləyib.

Baxıram insana; ağıllı, zəkalı, şüurlu insan. Düşünürəm, insa-

na bu mənəvi nemətləri verən əməkdir. Əmək! Hamını ucalığa aparan əmək. Ucalığa gedən yollar, bu yollarda ağaran başlar yadıma düşür.

*18.01.85.*

## BORC VER

Mənə arzu bəxş elə! Arzulu olum. Bilim ki, nə üçünsə yaşayıram. Arzumu məqsədə çevirim. Məqsədə çatmaq üçün mübarizə aparım. Xoşbəxt olum. Axı, səadət mübarizəsiz olmur.

Mənə sevinc bəxş elə! Sevinim. Həyatın acılarını unudum. Çöhrəmə təbəssüm qonsun, gözlərimdən nur yağsın bu sevincdən. Qəlbim təlatümə gəlsin, şəlalə kimi coşum-çağlayım, sevincdən ağlayım. Qoy mənim də gözlərim sevinc yaşı görsün. Sevinim. Axı, kədər həyatı məhv edir.

Mənə cəsarət ver! Uçurumlardan keçim, yoxuşları qalxım, dağlara çıxım, zirvələr aşım, qorxulardan uzaqlaşım. Axı, qorxu həyata düşməndir.

Mənə hünər ver! Yüksəklərə qalxım, ucalım, yüksəlim. Həyatın enişli-yoxuşlu yollarında yıxılmayım, büdrəyəndə qolumdan tutsun. Hünər ver! Axı, hünərsiz insan heç nəyə lazım deyil.

Mənə məhəbbət ver! Sevim, sevilim. Qoy ürəyim bərk-bərk döyünsün. Nəbzim sürətlə vursun. Damararımda qanım coşubdaşsın. Hiss edim məhəbbətin nəşəsini, əzabını. Qoy əzaba dözməyi öyrənim. Axı nəşə ilə əzab, sevinclə kədər birləşəndə həyat daha mənalı olur.

Mənə vəfa ver! Sədaqətli olum. Qoruyum məhəbbətimi. Yaşadım qəlbimdə ölənə kimi.

Mənə vüqar da ver! Dağ vüqarı! Məhəbbətim yüksək olsun, təmiz olsun, pak olsun dəryalar kimi. Axı, saf, ülvi məhəbbət insana xoşbəxtlik gətirir.

Mənə həyat ver! Sevinc dolu həyat! Arzularıma çatım, səadət tapım, sevinim. Qoy kədər həyatımı məhv etməsin. Sevinclə yaşayım, hamıya sevinc paylayım.

Mənə həyat ver! Cəsarət dolu, vüqar dolu həyat. Daim yüksəlim. Həyat ver! Hünərli, şücaətli həyat! Büdrəmədən irəliləyim yollarında. Hamıya lazım olum, kömək olum.

Mənə həyat ver! Məhəbbət dolu, sevda dolu bir həyat. Bilim ki, sevmək-sevilmək nədir, vəfa, sədaqət nədir.

Yox! Yox! Mən bunları səndən bəxşiş kimi istəmirəm. Borc ver bunları mənə. Borc ver, Təbiət!...

*08.03.85.*

## MƏHƏBBƏTİN HÖKMÜ

Bir dünyam da artıb, sən doğmalaşandan bəri. Elə böyümüsən, ucalmısan ki mənimçün, heç kim səni əvəz edə bilmir. Kimisə sevməyə özümü məcbur edirəm, təki səni unudum. Amma heç bir an düşünə bilmirəm, yenə də səni xatırlayıram. Bəzən ani olaraq kiminsə haqqında düşündüyümçün səndən xəcalət çəkirəm özlüyümdə.

Məhəbbətin hökmünə bax. Xəyalına da pərəstiş edirəm. Gözəl olur ki, xəyalla danışmaq. Bəlkə də sən məni həyatda belə başa düşməzsən. Amma xəyalən biz bir-birimizi elə gözəl anlayırıq ki...

*24.04.85.*

## SUSMA

Susur telefonum! Bütün həyat susub elə bil!

Susur telefon. Heç nə eşitmirəm. Bütün dünya sükut içindədir. Val fırlanır elektrofonda, eşitmirəm. Küçədə avtomobillər, avtobuslar hərəkətdədir, onlar da səssiz-səmirsiz. Hər şey, hər şey sükut edir...

Kimsə məni çağırır. Gözlərim baxır, görür onu, dodaqların hərəkətini görürəm, amma səsi çatmır mənə. Birdən o adam əyilir, düzəlir, nəhayət aparat şəklini alır. Telefon şəklində yaxınlaşıb-uzaqlaşır, gözlərimin önündə sanki rəqs edir. Az sonra otaqdakı bütün əşyalar qarşımda telefon aparatı şəklində hərəkət edir.

Sonra otağın divarları uzaqlaşır, nəhayət, yox olur. Çıxıram bütün dünya evinə. Orda da hər şey bir-bir yaxınlaşır, ətrafımda aparat şəklində fırlanır. Hər şey, hər şey rəqs edir telefon şəklində. Başım hərlənir, əllərimlə üzümü qapayıram. Bir anlıq zülmət

bir nəhayətsizlik açılır gözüm önündə. O zülmətdə də gözümün işlədiyi son nöqtədən mənə tərəf nəsə irəliləyir, yaxınlaşır telefon aparatı şəklində, dəhşətə gəlirəm. Tez gözlərimi ovuşdururam. Açanda otaqdakı kitab rəflərini görürəm. Rəfdəki kitablar bir-bir düşüb gəlir və aparat şəklində qarşımda qalaqlanır. Əlimi uzadıram, kitab qalağı telefon aparatına dönür. Qalxıb otaqdan çıxmaq istəyirəm, ətəyimə düşüb qalmış kitab yerə düşəndə diksinirəm. Kitabı açıb baxıram. Bu zaman içindən bir aparat çıxır. Beynimdəkiləri itirmək üçün kitabı qatlayıb bir kənara qoyuram. Qələm-kağız götürüb nəsə yazmaq istəyirəm. Baxıram. Fəqət heç nə görmürəm. Yazdığın hərflərin hər biri uzanıb böyüyür, qələmdən çıxan kimi stolun üstünə düzülür,- telefon şəklində.

Gözüm önündə canlanırsan. Təsəvvür edirəm ki, əlin uzandı telefonun dəstəyinə. Götürdün... Nömrəni yığırsan... Bax, indi zəng olunacaq... Fəqət, gözlədiyim olmur. Xəyalın poza bilmir bu sükutu. Hey susuir, susur telefonum. Telefon susub, bütün dünya susub elə bil...

*03.05.86.*

## DÖNMƏ

Hardasa, qəlbimin hansı bir guşəsindəsə sənli bir aləm vardır. Bütün dünyalarımdan böyük, bütün zirvələrdən uca, bütün nemətlərdən gözəl bir aləm. O aləmdə hər şey vardır. Sənli xəyallar nə qədər iztirab verirsə mənə, bir o qədər şirindir. Nə yaxşı ki, qəlbim boş deyil. Nə yaxşı ki, ömrümdəki boşluğu doldurmusan. Bilmirəm, bəlkə də nə vaxtsa olmayacaqsan. Bəlkə heç taleyimə yazılmadın. Heç nə bilmirəm. Fəqət, hansı bir ümüdsə yaşadır məni. Qəlbimin dərinliyində nəsə bir işartı var. Hansı bir baxışındansa, hansı bir sözündənsə alovlana billəm, yana billəm. Çox görmə mənə bu səadəti. Dönmə!

Dönsən, hər şey sönər gözümdə. Dönsən, özüm də mənsizləşər özümdə. Mənasız olar bu həyat. Hər şey adiləşər mənimçün. Yoxsullaşar, cılızlaşar bu həyat. Günəşsiz, Aysız, ulduzsuz olar bu kainat. İstəmirəm itirim sənli dünyanı, istəmirəm. Sən varsan, hər şey var, deməli, mən də varam.

Eh, sənli xəyallar hər şeydən gözəldir... Nə yaxşı ki, sən adlı

xəyal dünyam var. Nə yaxşı ki, sən xəyallı dünyada ümüd var, arzu var. Kaş ki, dönməyəydin. Dönməyəydin...

*26.01.87.*

## ƏLÇATMAZ SƏADƏT

Səadət deyilən bir şey doğrudan da nə qədər uzaq varlıqmış. Ha gedirsən, çatammırsan. Bəlkə də insanın ömründə qət elədiyi ən böyük məsafədir. Düşmüşəm axarına, gedirəm. Çata biləcəyəmmi? Bilmirəm. Bəlkə də sən mənimçün əlçatmaz varlıqsan. Bəlkə də heç vaxt nəsibim olmayacaq sənli səadət. Amma dar mənada bizimçün bir baxış da səadətdir. Gördüyümüz kölgədir, sənin də, mənim də. Hər ikimiz bir baxışa həsrət, uzaqdan zillənən bir baxışa, yaxınlaşanda yerə dikilən utancaq bir baxışa.

Heç nəyə gücü çatmayan, arzusunu, kamını xəyallarda axtaran və buna səadət deyən iki sevən var bu dünyada: sən və mən. Heç kimin duya bilmədiyi, mənasını anlaya bilmədiyi bir məhəbbət var bu dünyada: səndən mənə, məndən sənə lal baxışlarla deyilən məhəbbət. Budur bizim üçün ən böyük səadət!...

*29.01.87.*

## DƏRİNDƏ BÖYÜK GƏMİLƏR ÜZÜR

Təlatümlü dənizdir arzularım. Daim coşar-daşar. Dalğalar sahillərə dəyib yox olar. Sahildə tənhasan. Dayanmısan səssiz-səmirsiz. Kimsəsiz sahil; sakitliyə bürünmüsən. Xəyallar qoynundasan. Dənizdəki təlatümdən xəbərin yoxdur. Dalğaların pıçıltısını da eşitmirsən. Onlar mənim hisslərim, duyğularımdır. İrəliləyir, irəliləyir, sənə çatmaq istəyir. Fəqət, ayağın altında sönür. Dalğa üçün sahildən o yana həyat yoxdur, mənimçün səndən o yana. Sahil dalğaları tutub saxlaya bilmədiyi kimi, sən də mənim hissimi, duyğumu tuta bilmirsən. Amma tutmalısan dalğaları mənim qəlbimdəkiləri öyrənmək üçün. Dənizə baş vurmalısan...

Dayanma sahildə, dayanma. Səs-səmirsiz xəyallara boyanma. Sahil olma, sənə dəyib qayıdım. Atıl dənizə, dalğalar qoynuna. Sahil olma. Hər necə olursan-ol, dəniz ol!..

Sükut yaraşmır sevgiyə. Sükut ətalətdur, ölümdür. Sevgi coş-

qunluq sevir dəniz kimi. Sevgi mübarizə istər, həyat kimi. Həyat dənizinin dalğaları sınağa çəkər sevənləri. Sevirsənsə, dənizə sahildən baxma. Atıl dalğalar qoynuna. Qorxma, tənha qoymaram səni. Əl-ələ tutub, baş vurarıq dərinliyə. Coşqun dalğalar qoynunda, həyatın keşməkeşlərini dada-dada öyrənərik həyatı. O zaman dost olar həyat bizə, biz həyata... Qorxma...

Sahildə xəyal içində dayanmısan. Dayanmısan, hər dəfə dalğa gələndə mənə çatmaq istəyin səni dənizə çəkir. Amma sonra ayağın altında itən dalğaya təəssüflə baxırsan. Daha sonra gözlərin önündə şahə qalxan dalğaların gücünü görəndə içindəki hissin, duyğun cılızlaşır. O zaman gözündə məhəbbət də ucuzlaşır bəlkə... Get-gedə geri çəkilirsən. Cəsarətin çatmır irəliyə gedəsən. Dalğalar qoynunda qərq olmaqdan qorxursan?... Hə, elədir... Dərində böyük gəmilər üzür...

*29.05.88.*

## ELƏ BİLİRDİM...

İlk dəfə kiminsə coşub-daşan arzularında gördüm səni. Həmin anda sətirlərimdə canlandırdım səni. İstədim alqışlayım səni. Xoş kəlmələrdə sənin nəcibliyini, mərhəmətini, sənin insanlara bəxş etdiyin sevinci, kədəri yaradım. Qoy sənin qüdrətini hamı görsün...

Elə bilirdim ki, buna gücüm şatar. Sonralar gördüm ki, səhv edirəm. Səni vəsf etmək asan olduğu qədər də çətindir. Coşqun dəniz yaratmaq üçün fırtınalar qoynuna atılmalısan ki, onun coşqunluğunu hiss edəsən.

Atıldım ümmanlara. Mən də sevdim! Hamı kimi əsl məhəbbətin nə olduğunu bildim. Nəğmələrdə, şeirlərdə eşitdim səni. Hamı kimi duydum səni. Lakin bəziləri kimi səni xatirələrdə yaşatmalı oldum. Sən əbədilik beynimə həkk olundun. Ürəyimə girdin, damarlarımda dövr elədin. Sənlə bağlı acılı-şirinli xatirələr ömrümün, gəncliyimin ən mənalı səhifələrini təşkil etdi. Sən yarandığın kimi də məhv oldun. Fəqət, mən səni atmadım, qəlbimin dərinliklərində dəfn etdim...

*30.05.88.*

## LƏYAQƏT

Məhəbbət həyatın bizə bəxş etdiyi ən gözəl nemətdir. O hər şeydən yüksəkdir. İnsan onun yolunda hər şeyə dözür. Onunla zirvələr aşmaq olar, ucsuz-bucaqsız dənizlər keçmək olar.

Mən də məhəbbətə görə ümmanlara baş vuraram. Bütün "dünyaları" gəzərəm. Hər əzaba dözərəm. Hər şeydən keçərəm eşqimə görə. Fəqət...

Təkcə səni qurban verə bilmərəm. Sənə görə vüsalı hicranla əvəz etmişəm. Səni itirməməkçün sevincimi kədərə vermişəm. Səni itirsəm, dünyamı dəyişərəm. Məhəbbətimi, arzularımı, duyğularımı da qurban verərəm sənə. Təkcə sənə! Çünki, sən məhəbbətdən də yüksəksən. Ləyaqət! Ləyaqət!

*01.06.88.*

## OLSAYDIN

Günəş olsaydın, bütün günü sənə baxardım. Hərarətin məni yandırıb kül etsə də, şüaların gözlərini kor etsə də, baxardım.

Ay olsaydın, gecələr yatmazdım. Ayaz, şaxta olsaydı da, dayanıb sənə baxardım. Yuxusuzluq bilinməzdi mənə, baxardım. Şaxta dondursaydı da məni, baxardım....

Dəniz olsaydın, sahilində məskən salardım. Suların donsaydı da əl çəkməzdim sahilindən. Coşub-daşsaydın, sahili bassaydın, dalğaların qoynunda məhv olsaydım da çəkinməzdim.

Dağ olsaydın, zirvənə qalxardım. Qorxmazdım, əl-qolumun sıyrınsıtısına baxmayaraq, dırmanardım. Yıxılmaq təhlükəsi də qorxutmazdı məni, dırmanardım.

Olsaydın!...

*02.06.88.*

## NƏLƏR VERDİN, NƏLƏR ALDIN

Məni hamı hövsələsiz tanıyır. Deyirlər ki, kobudam, doğrudur. Lakin bir zamanlar mən də sakit idim. Hər şeyə səbrim çatırdı. Sənə rast gəldim, sevdim. Hicran gördüm, hicranın aldı

səbrimi. Dəyişdirdi məni əzabların. Çox şeydən məni məhrum etdi məhəbbətin. Lakin yeni keyfiyyətlər verdi mənə. Dözümlü etdi məni. Gücümü artırdı. Yüksəltdi məni. İnsanlığımı, böyüklüyümü dərk etdirdi mənə. Başa düşdüm ki, insanam, mənim də qəlbim var, sevə bilərəm, mənim də dözümüm var, əzab çəkə bilərəm.

Mənə nələr verdn, nələr aldın, özün də bilmədin. Hər şeydən xəbərsiz yaşadın. Aldıqların üçün qınamıram səni, verdiklərin üçün minnətdaram...

*03.06.88.*

## KİMİNSƏ

Kiminsə qəlbində yaranmışam, ölmüşəm. Kimsə sevib bir zamanlar, indi onunçün sönmüşəm. Kiminçünsə yenidən doğulacağam, əbədi yaşayacağam. Kiminsə ilk eşqi olmuşam, kiminsə son qisməti olacağam. Kiminsə hicranı, əlçatmaz arzusuyam. Kiminsə, hələ də vüsala ümüdü var...

*04.06.88.*

## HƏYAT DƏRDİ ÇƏKƏ BİLƏNƏ YÜKLƏYİR

Gün-gündən artır qüssə-kədər, nə qədər dözürsən, bir o qədər... Əvvəllər mən həyatı tamam başqa cürə düşünürdüm. Çünki, sıxmamışdı məni daxili ehtiyac. Başım üstdəki səmanı aydın görürdüm. Onu bir vaxt buludlar alacağını təsəvvürümə belə gətirmirdim. Amma indi görürəm daxili sarsıntı mənə güc gəlir. Elə bil içimdə böhran var. Nə ağır yükmüş həyat: əzab... iztirab... ruhi sarsıntı...

Deyirlər, həyat dərdi çəkə bilənlərə yükləyir. Bu dərdi mənə həyatmı yüklədi, ya sənmi yüklədin? Bəlkə haqsızam? Bəlkə sən elə bir vəziyyətdəsən ki, ayda bircə dəfə gəlib məni görə bilməyinçün sənə minnətdar olmalıyam, qarşında baş əyməliyəm? Bəlkə sən doğrudan da elə bir əzəmətə maliksən? Niyə gizlədirsən? Açıq de. Anlat mənə, daha qınamayım səni. Axı, çətindir...

*05.06.88.*

# KİMDİR GÜNAHKAR

Gözümün önündədir xiyaban. Beynimdən silə bilmirəm o mənzərəni. Elə bil yuxudur. Yan-yana qazılmış qəbirlər. Qəribədir... Sadəcə olaraq, hökumət əmr verdi, ordu gəldi. Ordu gəldi, günahsız xalqı qırıb-tökdü. Biz də ölənləri qoyduq qəbrə, üstünü örtdük. Bəs sonra?..

Kim əmr verdi? Niyə əmr verdi? Hansı qanunla? Heç kim bu suallara cavab tapa bilmir. Zavallı xalqınsa gücü göz yaşlarına çatır. Bir də təsəlli olacaq qərənfillərə!...

Artıq bu gün şəhidlərin yeddisidir. Hamı gəlir axın-axın, baxır, baxır, göz yaşı tökür, qəbirlərin üstünə qərənfil qoyur, sonra da həzin addımlarla keçib gedir. On mindimi, yüz mindimi gələnlərin sayı? Eh!... Düşünürəm, görəsən, necə çıxacağıq onların borcundan? Göz yaşı, qərənfil, - elə bu? Bir azdan qərənfilə də ehtiyac olmayacaq. Göz yaşı ilə suvarılan xiyabanda başqa güllər bitəcək...

Eh!.. İnsan nə qəribə məxluqdur. O gecə bizi geriyə qaytarmasaydılar, yəqin ki, indi biz də xiyabanda yatırdıq. Kim bilir, bəlkə heç o da bizə qismət olmayacaqdı. O qədər ölənlər var ki, heç meyidi də tapılmayıb. Bəlkə...

Elə bil ki, hər şey nağıldı. Qəribə taleyin var imiş Bakı!... Qara bayraqlarına baxanda düşünürəm ki, bir zamanlar analar qara çadralarını atdılar, sevindin ki, qadınların azad olub qırmızı bayraq altında. İndi o qırmızı bayraq altında rəngbərəng güllələrə tutdular səni. Qismətinsə “Şəhidlər Xiyabanı” oldu...

...Onlar da xoşbəxt olmaq istəyirdilər. Kimi oğul-uşaq sahibiydi, kimi təzəcə ailə qurmuşdu, kimi də nişanlı idi. Bəzilərinin hələ ürəyində kiməsə deyiləsi sözü var idi. 14-17-21-22 yaş nədir ki... Kimsə hələ heç baxışını sınamamışdı, kimisinin əlçatmaz arzuları var idi, kiminin ümüdləri, gümanları. Eh!... Bir anda hamısı torpağa gömüldü.

Kimdir günahkar? Kim?..

*27.01.90.*

## YADINDAMI

Allah-təala sənə ona görə qız verməyib. Qızın olsaydı, xoşbəxt olacaqdı. Ona görə olmayıb. Yadındamı, telefonda mənə dediyin sözlər: "Yuxuda mənə deyiblər ki, "Mail, Allah sənə qız verməyib, əvəzində Sonanı göndərib səninçün." Yadındamı, onda mən susmuşdum. Ani xoşbəxtliyin təsirindən çıxa bilməmişdim. Elə bilirdim ki, dinsəm, bu səadəti, bu atalı anı itirəcəyəm.

Amma bu gün səni incitdim deyəsən. "Mənim öz atam daha yaxşı adam idi" deyəndə tutuldun, ancaq gülə-gülə "yəqin ki" dedin. Xətrinə dəymək fikrim yox idi. Əslində elə atamda olan nələrisə tapdığımçün, sevdim səni. Bəzən təbəssümündə, bəzən gözlərin yol çəkəndə, bəzən də içində hirslənib, zahirən sakit görünməyə çalışmağında onu görürəm.

Sənlə bir yerdə olanda itirdiyini tapmış uşaq kimi sevinirəm. Hər şeyi unuduram. Sənlə söhbət edəndə dünyanın bütün çirkabını, həyatın bütün eybəcərliklərini unuduram. Hamıdan, hər şeydən bezdiyim vaxtlarda, səni görməyə gəlirəm. Ən vacib işimi belə əlimdən qoyub gəlirəm...

*02.05.95.*

## XATİRƏ ŞƏKİL

Bir şəklimiz var. Səni görə bilmədiyim günlərdə həmişə baxıram ona. Dostlarım gələndə, səndən söz düşəndə onlara da həmin şəkli göstərirəm.Özünə də demişdim ki, sən bu şəkildə tamam başqa cür düşmüsən; daha ağıllı, daha müdrük. Üzündə uşaq məsumluğu var. Hansı kitabdasa oxumuşdum ki: "Uşaq məsumluğunu ömrü boyu qoruyub saxlaya bilmək, insanda mənəvi zənginlik nişanəsidir". Mənim aləmimdə təbiətin bununla müqayisəyə gələ biləcək ikinci bir gözəlliyi yoxdur...

Həmişə şəklinə baxanda üzündəki təbəssüm mənim də üzümdə əks olunur. Qeyri-ixtiyari gülümsəyirəm. Bir gün bizə gəldin. Şəkil albomlarına baxırdıq. Söhbət gəlib həmin şəkilə çatanda,

onu istədin. Verdim, baxdın. Sonra çevirib arxasına birbaşa on beytlik bir məsnıvi yazdın. Şeir bitirdi:

Ancaq incitməmiş könlüm kimsəni,
Fəqət incitmişəm Ata tək səni.
Mən köçən zamanda fani dünyadən,
Halal eyləyərsən Maili hökmən.

O vaxtdan bir həftə keçib. İndi hər dəfə həmin şəkli götürüb baxanda, gözümdən iki damla yaş yanağıma süzülür. Sonra nə qədər şəklə baxıramsa, üzündəki təbəssüm əks olunmur üzümdə. Allah o günü mənə göstərməsin...

*04.06.95.*

## XƏYALDAN HƏQİQƏTƏ

Mənə kitablar tərbiyə verib. Amma uşaqlıqdan içimdə ideal bir varlıq olub. Ağlım kəsəndən o olub sirdaşım. Hər şeyi kitablardan öyrənsəm də, bəzən başa düşmədiyim şeylər olub, özümlə baş-başa qalmışam, anlamadığımı ondan soruşmuşam. Uşaqlıqda onu Dədə Qorqud zənn edərdim. Sonralar xəyal mənə bəs eləmədi. Həqiqətdə həyat müəlliminə ehtiyac hiss elədim. Həyatım boyu ona oxşar adamlar görmüşəm. Hətta bəzən mənə elə gəlib ki, onun özünü həyatda tapmışam. Amma heç kimi o varlığa geydirə bilməmişəm. Hamı ona dar gəlib. O heykəl həmişə xəyal olub. Hər dəfə ona geydirə biləcək bir şəxsiyyət tapanda, elə bilmişəm ki, dünya mənimdir. Səhv elədiyimi biləndəsə, küsmüşəm dünyadan. İstəmişəm dəyişəm dünyamı. Amma nəsə məndə bir ümüd qığılcımı yandırıb. Bəlkə də mənə həmişə düzgün yol göstərən o varlıq olub məni geri çağıran, məndə inam yaradan. İnanmışam ki, nə vaxtsa, onu həyatda tapacağam.

Səni kəşf edəndən sonra elə bilirəm ki, axtardığımı tapmışam. Elə bilirəm ki, o xəyal həqiqət olub. İndi mən artıq o xəyalla danışmıram. Ehtiyacım olanda, gəlib sənlə danışıram. Hər dəfə nəsə öyrənirəm. Bəzən oturub yazırsan, danışmırsan, sükutunda da

nəsə tapıram, nəsə öyrənirəm. Bir zamanlar atamın sükutunda tapdığım kimi...

Amma bəzən qorxduğum vaxtlar da olur. Yanına müxtəlif adamlar gəlir. Hər kəs ilə öz dilində danışırsan. Bəzən hər hansı bir sözün, hərəkətin xətrimə dəyir, bütün fikirlərimi alt-üst edirsən. O anda dözmürəm, nəyisə irad tuturam sənə. Elə bilirsən ki, mən özüm əsəbiləşirəm? Yox, içimdəki heykəl üsyan edir. Dar gəlirsən ona, sıxılıb boğulur, səndən uzaqlaşmaq istəyir. Sənsə məndən inciyirsən. Deyirsən ki, ata-övladlıq belə olmur. Qız atasının sözünə baxar. Bu vaxt elə mənəvi zərbə alıram ki. Dinmirəm, sarsıldığımı sükutumda gizlədirəm...

*19.06.95.*

## CƏNNƏTDƏN CƏNNƏTƏ

İstəyirəm lap körpə uşaq olum. Çıxım bələkdən sən gələndə. İməkləyə-iməkləyə gəlib yapışım şalvarının balağından. Dikəlim, səndələyə-səndələyə dayanım. O qədər dayanım ki, böyüyüm, əlim çatsın pencəyinin ətəytinə. Tutum ətəyindən, bir az da dikəlim, böyüyüm bir az da...

Yox, daha bıəsdir... Uşaqlıq elə buracan olur, atam. Bundan o yana uşaqlıq yoxdur, atam! Bundan o yana başlayır dünyanın uşaq heyrətindən doğulmağı. Daha sonra insan nəfsində boğulmağı. Get-gedə məsum uşaq gülüşümüz müxtəlif növ gülüşlərə parçalanır. Təmiz uşaq ağlamağımız dəli hönkürtülərə çevrilir.

Burdan başlanır bəşərin faciəsi... Fələk çərxinin düz dövriyyəsini qurtarıb, tərsinə fırlanmağa başlayır. Zəmanə qarının kəlafları dolaşır insanların boynuna. İblis qəh-qəh çəkib gülür. Gülür bizim insanlığımıza. Gülür nadanlığımıza. Gülür bir buğda ilə cənnətdən Yer üzünə gələn insanın nəyin hesabınasa yenidən cənnətə qayıtmaq ümüdünə. Beləcə, İblisin gülüşü qədər taleyimizə göz yaşı yazılır. Və niyə doğulub, niyə öldüyünü bilmədən, ağlaya-ağlaya doğulur, ağlada-ağlada ölürük!...

*25.06.95.*

# BEŞ YÜZ İLDİR

Beş yüz ildir ki, alovunu bəşəriyyətə paylaya-paylaya yanırsan... Ayağın Kərbəla torpağına dirənib, alovun bütün yer kürəsinə yayılıb, eşqin ərşə yüksəlib. Odunun hər zərrəsinə min-min pərvanə şərik. İstisinə milyon-milyon qəlb möhtacdır. “Məndə Məcnundan füzun aşiqlik istedadı var”, deyib Məcnunu sadəcə “ad” səviyyəsinə endirən eşqinin sədaları altında neçə-neçə məcnunlar gəlib-gedib, aşiq babam!

Beş yüz ildir ki, İlahi eşqinlə külüng çalıb parçaladığın dağlardan tökülən şəlalələrdən yaranmış dəryalardan incilər toplayırıq. Bəlkə də heç mində birini ələ gətirməmişik. Gözəlliyinin nəhayəti bilinməyən misilsiz söz gülşəninin ətrini tam duymamışıq. Təravətli güllərindən bəs deyincə dərməmişik. Bu dünyanın havasına hopmuş şeirinin ecazkar musiqisini hələ qədərincə dərk etməmişik. Təbiətin nəqşlərinə sirli rən-garənglik verən əvəzsiz söz sənətinin sehrindən qurtara bilmirik, şair babam!

Beş yüz ildir ki, “Elmsiz şeir əsası yox divar olur, əsassız divar ğayətdə bietibar olur”,- deyib şeirdə yaratdığın elmilik, kamillik yolunun kənarında addımlayırıq, hələ də o yola keçməyə ürək eləmirik. Qoyub getdiyin elm xəzinəsinin cəvahirlərinə ancaq uzaqdan tamaşa edirik, əl atıb götürməyə cəsarətimiz çatmır, alim babam!

...Təkcə onu bilirik ki,

Aşiq Füzuli var,
Şair Füzuli var,
Alim Füzuli var!...

*1995.*

## UŞAQ KİMİ

Bu gün uşaq kimi idin. Daxili sevincin var idi, ya nəsə...

Uşaq kimi olanda, səni daha çox sevirəm. Lap atan kimi, anan kimi. Desəm bəlkə də gülməli gələr sənə. Amma bu həqiqətdir. Səni belə görəndə çox sevinirəm. Sən həyatda az-az hallarda belə olursan. Şəkillərdəsə əksinə, çox vaxt. Hərdən albomu vərəqləyirəm. Baxıram, uşaqlıqdan ta albomdakı sonuncu şəklinə kimi üzündəki cizgiləri izləyirəm. Baxışında, xüsusən də gülüşündə bir məsumluq bar. Şəkillərin çoxunda gülümsəyirsən. Bu şəkillərin çoxu sevincli günlərinin yadigarıdır. Amma küsgün baxan vaxtlarında da uşaq kimi görünürsən. Səni həmişə belə görmək istərdim. Hər cür eybəcərliyə qarşı kinsiz, nifrətsiz...

Bu gün uşaq kimi idin. Lap səni birinci dəfə gördüyüm kimi. Mən həyatda heç bir qadına qibtə eləməmişəm. Heç indi də eləmirəm. Nə qızına, nə yoldaşına, nə bacılarına... Amma anan sağ olsaydı, ona qibtə edərdim. Elə səni ilk gün görəndə də kiməsə etiraf eləmişdim ki, "adamın belə oğlu olsun". Əlbəttə, bu əlçatmaz arzudur. Elə insanlar var ki onların ikincisi olmur. Bu da Allahın işidir. Füzulinin, Xətainin ikincisi olsaydı, bizim nə Füzulimiz olardı, nə Xətaimiz...

Bu gün uşaq kimi idin... Bu gün səninlə danışmaq istəyirdim, uşaq kimi. Amma danışa bilmədim. Həmişəki kimi... Sonra eşitdim ki, Əzizə xanımın yasına gedəcəksiniz (yeddisinə). Kədərləndim... Ona görə ki, o məclis sənə öz itkilərini xatırladacaqdı... O məclis gördüyüm uşaq cizgilərini üzündən siləcəkdi. Baxışından məsumluğu oğurlayacaqdı... Kim bilir, bəlkə də əksinə, səni uşaqlığına qaytaracaqdı?.. Hər halda üzündəki, gözündəki sevinci oğurlayacaqdı səndən. İstədim deyəm ki, getməyin. Amma deyə bilərdimmi?.. Sonra eşitdim ki, ordan çıxıb İntiqam Qasımzadənin yubileyinə gedəcəksiniz. Eh, onsuz da yazıçı bir gündə əsərində neçə sevinci, neçə kədəri növbələyə bilir. Bəlkə də çətin olmayacaqdı. Amma bir həqiqət də var ki, həyat əsər deyil...

Bu qırıq-qırıq fikirlər içində səni gözümün önündə canlı saxlamaq istəyirdim. Çünki bu gün sən uşaq kimi idin. Uşaq kimi...

*11.09.03.*

## ONU GÖYLƏR ÇAĞIRIRDI

Bir məzar qazıldı. Adi bir məzar. Hamı kimi doğulub, hamı kimi ölənlərçün qazılan məzarlar kimi qazıldı. Bir varlığı bir yoxluğa büküb bu məzara qoydular. Üstünə minillərlə ölüb-dirilən, varlığı yoxluğa, yoxluğu varlığa çevirən torpaq tökdülər bu məzarın. Millət axın-axın ziyarətinə gəldi. Hər gələn üstünə bir neçə gül qoydu, bir neçə damla göz yaşı tökdü. Böyüdü bu məzar. Böyüdü həm eninə, həm uzununa, həm də qalxdı, bütün məzarlardan uca oldu. Yoxluq gül-çiçəyi seyr edə-edə boğuldu güllərin ətrindən. Durub boylandı məzardan. Qışqırıb gələnləri qovmaq istədi. Qorxdu birdən bir möcüzə baş verər, bu qədər gülün ətrinə, bu qədər göz yaşının xətrinə Allah bir qanunu poza bilər, ölümü geri çağıra bilər. Qışqırdı, qışqırdı. Varlıq onun səsini kəsdi. Göz yaşı içində boğula-boğula gələnləri salamladı. Yoxluq qalxıb məzardan çıxdı. İnsan axınının qarşısını kəsdi, axını dayandırmaq istədi. Varlıq dartıb onu məzara çəkdi. Axın artdı dəqiqəbədəqiqə, saatbasaat. Gecə oldu, axın yenə kəsilmədi. O gecə nə Fəxri xiyabanda ruhlar yatdı, nə də evlərdə adamlar. O gecə bir var-lığın yoxluqla mübarizəsi gedirdi. Bu, bir ömür mübarizələrdə yaşayan, dünyaya meydan oxuyan, indisə qidası gül-çiçək, suyu göz yaşı olan varlığın son mübarizəsi idi. Artıq onu göylər çağırırdı...

*15.12.03.*

## Ş E İ R L Ə R

Mən qazanmaq istəmədim
Nə pul, nə şan-şöhrət.
Mən yazılmaq istədim
Kitab-kitab.
Eşitmək istəmədim
        boğazdan yuxarı söz,
Bir kimsədən gözləmədim
            saxta, ucuz hörmət.
Sadəcə yığılmaq istədim
                kitab-kitab.
Ömrümü kitablara tökdüm,
Hissimi, duyğumu səhifələdim:
gün-gün,
          ay-ay,
                il-il.
Yazdım-yaratdım,
Oxunmaq istədim
                kitab-kitab.

*10.12.11.*

***

Artıq oldu yaşım əlli,
Asta-asta gəldi keçdi.
Bu yaşımdan halım bəlli,
Ürəyimi dəldi keçdi.

*19.06.11.*

***

Yığışdım bu sevgilərdən,
Bezikdim bu üzgülərdən.
Ayır məni güzgülərdən,
Dünya, burax gedim daha.

*08.03.11.*

***

Mənim itirdiyim daş deyildi ki,
Ruhuma can verən canlı insandı.
Ağaran saçımdı, baş deyildi ki,
Hamı unut dedi, guya asandı.

*18.10.10.*

***

Mənim kədərimi silmək istəyən
İşini-gücünü atıb gələrdi.
Mənim sevincimi bölmək istəyən
Hər şeyi bu ana satıb, gələrdi!

*14.10.10.*

***

Bu qisməti tale yazdı,
Səni məndən uzaq etdi,
İnanmadım yoxluğuna,
Torpaq səni alıb getdi.

Dayanmışam qarşısında
Qara mərmər bir məzarın.
Əbədilik yuxudasan
Qoynunda bu laləzarın.

Ağlayıram baxa-baxa,
Dörd tərəfin qızılgüldür.
Xatirədən qopa-qopa
Gücün çatır, məni güldür.

Qalx məzardan demirəm ki,
Bir ruh kimi gözə görün.
Sən köçəndən susub qələm,
Bir şeirlik sözə bürün.

*27.06.10.*

***

“Gənc qələm”, şeir deyək şeirimizin şöhrətinə,
Son qoyaq şeirlə qoy könlümüzün həsrətinə.

Gəl edək seyri-gülüstan, göyə uçsun ruhlar,
Eşqimiz üstün ola qəlbimizin möhnətinə...

Sona çox istədi ki, sevgi-məhəbbətlə yaza,
Şeir ithaf eləyə “Gənc qələm”in vəhdətinə.

*25.09.10.*

***

Bu dünyanın hər bir işi xırdadır,
Xırda yükü daşımağa nə var ki.
İri, xırda, - yük çəkməyən deyər ki,
Bu dünyada yaşamağa nə var ki.

İri, xırda, bu dünyanın yükü çox,
Yollarının enişi çox, diki çox.
Bu dünyada qiymət alsaq 2, - çox!
Bu dünyada yaşamağa nə var ki.

Daha könlüm bezib xırda dünyadan,
Çimçişirəm bu cür rəngü riyadan.
Bəxtim gülsə, ayılmasam röyadan,
Bu dünyada yaşamağa nə var ki.

Bir sən idin bu dünyadan umduğum,
Xəyalilə xəyallara cumduğum.
Səni görüb gözlərimi yumduğum
Bu dünyada yaşamağa nə var ki.

06.08.09.

***

Otuz il yaşadın sən bu sevdada,
Uzaqdan dolandın lap ögey kimi.

Mən bu dünyadayam, sən o dünyada,
Gör necə yaxınıq yerlə göy kimi.

*02.08.09.*

***

Hər şeyi bilmək olsaydı,
Yazını silmək olsaydı.
Yaşamağa nə vardi ki,
Ölənlə ölmək olsaydı.

*01.07.09.*

***

Yaşıdlarımın iş otaqlarının
divarlarına asılmış,
Bəzisi pulla, bəzisi minnətlə alınmış
rəngbərəng kağızlar,
İşi keçən adamlarla
çəkdirdikləri fotoşəkillər
gözümə girir hərdən.
Düşünürəm...
Yadıma
böyük-böyük adamlarla çəkdirdiyim,
Fəqət gizlədib
onlara belə göstərmədiyim şəkillər
və imtina elədiyim
mükafatlar düşür.
Nə ayrıca iş otağım var,
nə də divarlara asılmış diplomlar.
Hardasa,
oxucularımın evindəki kitab rəflərində
məni yada salan kitablarım var.
Hardasa,
Allahın mənə yazdığı mükafatlar var.
Bəlkə elə ona görə yaşıdlarım arasında
mən olmağımla seçilirəm,
öz mənimlə sevilirəm...

*23.05.09.*

***

Qar bilmədin, qış bilmədin,
İsti bilmədin, günəş bilmədin.
Göydən qar gələndə də,
od ələnəndə də
Dayandın, durdun bu yerdə.
Günlər, həftələr deyildi,
aylar, illər deyildi.
Bütün gəncliyini xərclədin
uğursuz bir sevgi yolunda.
Bütün dincliyini xərclədin
ölümlə olumda.
Bu gün boşdur bu küçə,
İzlərini illər itirib bəlkə də.
Mənsiz illər alıb aparıb
bu yolların mənasını,
Mənsiz anlar anlatsa da,
həqiqi eşqin mənasını,
Mənli illərin yazdığı dastan
artıq xatirə yüküdür.
Bu, o qədər ağır çəkidir...
Çəkilməz,
dözülməz,
heç nə ilə ölçülməz.
Bu sevda içimdə ağlar, sızlar,
Amma itməz, batmaz, ölməz...

*09.01.09.*

***

Yoxdu bu dəhrdə bir dost, Xudadan qeyri.
Yox ona çatmağa bir yol da, duadan qeyri.

Gəlirik dəhri-fənayə, çəkirik zülmü cəfa,
Nəyi var, söylə görüm, zülmü cəfadan qeyri?

Yandı odlara Füzuli səri-kuyində yarın,
Umdumu heç rəhi-eşqində fənadan qeyri?

Hansı aşiqdi ki, tapmış özünə bir qəmxar?
Kimin olmuş çaparı badi-Səbadan qeyri?

Hamını anlayaraq dərdini çəkdi bu ürək,
Bəs mənim fikrimi kim çəkdi Sonadan qeyri?

*2006*

***

İntiqam açdı bizə bir yeni ünvan Şüvəlanda.
Sanki, qurdu bu sayaq məclisi-ürfan, Şüvəlanda.

Gəldi məclisə Xətayilə Füzuli ruhu,
Şüəra və üləma çox oldu mehman Şüvəlanda.

Yazmadı şeir, fəqət şairə rəğbət elədi,
Verdi pirü cavana şeirdə meydan, Şüvəlanda.

Baxmadı nə yaşına, cinsinə, vəzifəsinə,
Ondan incinmədi heç vəqt bir insan Şüvəlanda.

Sona bir məclisə rəhbərlik edib, aldı qələm,
Bir kitab oldu onun gördüyü bir an, Şüvəlanda.

*1999*

***

Könlüm yenə qəmxanə olub dərdü qəm üçün,
Dostlar da məzəmmət eləyir bu peşəm üçün.

Aşiqliyi dərk etdirəcək özgə sifət yox,
Arifliyi isbat edəcək bu ələm üçün.

Bülbül ki, edib ahü fəğan bağçada gülçün,
Pərvanə də bil yanmaya bilməzdi şəm üçün.

Pərvanəsifətlər yığışıb Sabir evində
"Pərvanə"ni bərpa edə əhli-qələm üçün.

Şerə, sənətə vurğun olub çoxlu sənətkar,
Eylər Sona alqış bu uğurlu qədəm üçün.
2001

***

"Körpü"nü oxudum,
Haqqında yazmaq istədim.
Yaza bilmədim, çünki
Camaat körpünü keçəndə,
Körpü partladı, dağıldı.
Boğulduq
qərb qoxulu,
qərb yuxulu
bir ədəbi mühitdə.

***

Bu otağı isidəcək
Nəfəs yoxdu, İlahi.
Nəfəs varsa,
Həvəs yoxdu, İlahi!

***

Şairlər bir-birin həcv etsə belə,
Könüllər heç zaman qəmxanə olmub.
Bizlərdə sevəndə qəlbən seviblər,
Aşina olanlar biganə olmub.

***

Düşməzdi həvəsdən, görə meyxanəni arif.
Ölməzdi həsəddən görə biganəni arif.

Minlərlə həqiqətləri əfsanə yaratmış,
Sevsin bu səbəbdən gərək əfsanəni arif.

Fərzanə deyilmi sənə rast olmuş adamlar,
Düşməz ki, həvəsdən görə fərzanəni arif.

Söylər Sona "şair" ki, yazır böylə qəzəllər,
Heç vədə bəyənməz belə "dürdanə"ni arif.

*09.08.98.*

***

Sən dənizi axtarırsan,
Dəniz sənin gözündədir.
Fərid balam, dəniz sənin
İçindədir, özündədir.
Qismət olmur hər bir kəsə
Gözündə dəniz saxlasın.
Bu dəhşətli dünyamızda
İçini təmiz saxlasın.
Arzum budu ömür boyu
Üzündəki, gözündəki
Məsumluğu qoru, saxla!
Xoş arzulu ürəyində
Od-alovu, qoru saxla!

*12.07.95.*

***

Sən açırsan ürəyini,
Mən qapalı bir çevrəyəm.
Sənin arzu-diləyini
Çalxalayan bir nehrəyəm.

Nə deyirəm aç içini,
Qoy çiynimə bir dünya dərd.
Sürüb getsən sən çöçünü,
Öz-özünə tapar həmdərd.

*22.04.94.*

## OĞLUMA

Ömrümün xəzanı gəlib çatıbdır,
Ayıma, ilimə yas saxlayıram.
Baharda açmamış qönçələrimə,
Soluxmuş gülümə yas saxlayıram.

Haçansa bəlkə də uşaq olmuşam,
Çox da uşaqlıqdan uzaq olmuşam.
Gəncliyə çatınca ocaq olmuşam,
İndisə külümə yas saxlayıram.

Göz yaşım hey axdı bilə bilmədim,
Üzümdə deyildi, silə bilmədim.
İçimdə bir damla, gilə, bilmədim,
Sel oldu, selimə yas saxlayıram.

Gəncliyi bir təhər yetirdim sona,
İstər anla məni, istərsə qına.
İçimdə Sonanı dəfn edib, ona
Ağılı dilimlə yas saxlayıram.

*10.09.09.*

***

Dedim
    sənsiz mənə yoxdur həyatda,
Dedin, boş sözdür, inanmıram.
Kinayəylə güldün mənə,
    eşidəndə
        gecə-gündüz ağlayıram,
            inanmadın.
Bir gün öldüm,
    fərqi yoxdur,

ölümə də inanmadın.
Soruşurlar
niyə qara geyinmişəm?
Deyirəm ki,
özümə yas saxlayıram!
Məhəbbətin səhrasında,
düzündəyəm,
düzümə yas saxlayıram.
Bir söz dedim,
öz sözümün ağasıyam.
Sən deyiləm,
dediyimi dana biləm.
Göz yaşımla
bulud olub yağasıyam,
Bir söz dedim,
sözümə yas saxlayıram.
Bir gün bilsən, dönərsənmi?
Bir gün duysan, gələrsənmi,
Sən yenidən təbəssümlə
baxıb, baxıb, gülərsənmi?
Bir də,
bir də məni anan kimi sevərsənmi?
Səni sevən ürəyimi yaxıb-yaxıb,
sənə həsrət öləziyən
gözümə yas saxlayıram!

*03.04.09.*

***

Çox da hər düşüncəm səninlə bağlı,
Çox da hər yazımda səndən bir iz var.
Sənsiz düşünməyə, sənsiz yazmağa,
Sənsiz yaşamağa öyrəşəcəyəm.

*26.02.09.*

***

Həmin yol idi...
Bir vaxt
danışa-gülə keçdiyimiz yol.
Bu günsə
vuruşa-vuruşa keçdik o yolu.
Xatirələri pıçıldamadı bizə
nə sağ, nə sol.
Bəlkə heç
dinləmək istəmədik o yolu.
Bəlkə elə ona görə
sonunda ayrılıq tapdı bizi?
Eşidə bilmədik nə ağlımızı,
nə qəlbimizi.
Yenə incidin,
yenə incitdim səni.
Nə deyim,
qınamıram nə səni, nə məni.
Bu sevgidə hər ikimiz
sadəcə səbəbkarıq,
Günahkarsa...

*23.02.09.*

***

Musiqi səslənirdi,
içini çəkdin.
Üzünə baxdım,
gizlənmək istədin.
Amma içini görürdüm.
ağlayırdın içində.
Nəyə?
Nakam sevgiyəmi,
əlçatmaz arzuyamı,
bilmirəm...
Amma bircə onu bilirdim ki,
içindəki nisgilin

Tənha çəkə bilməyəcək qədər
ağır idi.
Dərdinə şərik olmaq istədim,
Amma bölə bilmədin mənimlə
içindəki dərd-ələmi.
Bəlkə də dərd çəkməyə
layiq bilmədin məni.
Niyə?..
Kiməm səninçün?-
deyə soruşmaq istədim.
"Heç kim" -
deyə biləcəyindən ehtiyat elədim.
Daha ağır dəhşət
yaşamaq istəmədim.
Onsuz da
içimdə sən adlı bir dağ var,
çəkə bilmirəm...

*22.02.09.*

***

Eşqin ilə yana billəm,
Səni Yusif sana billəm,
Fəqət Yəqub ola billəm,
Züleyxalıq mənlik deyil.

*14.02.09.*

## *SONA XƏYALIN QISA TƏRCÜMEYİ-HALI*

Sonaxanım Həmid qızı Hadiyeva 1961-ci il iyunun 19-da Bakının Maştağa qəsəbəsində anadan olub. 1976-cı ildə 255 saylı səkkizillik məktəbi, 1978-ci ildə 187 saylı orta məktəbi bitirib.

1981-ci ildə Bakı 1 saylı Tibb Məktəbinin mamalıq şöbəsini, 1991-ci ildə BDU-nun biologiya fakültəsini bitirmiş, 1986-88-ci illərdə İxtiraçılıq İnstitutunda, 1995-1999-cu illərdə Elmi-Tədqiqat Əkinçilik İnstitutunun aspiranturasında (qiyabi) təhsil almışdır.

Tibb məktəbində oxuyarkən, 1979-cu ilin sentyabrında 7 saylı Birləşmiş Şəhər Xəstəxanasının laboratoriya şöbəsinə işə qəbul edilmişdir. Tibb Məktəbini bitirdikdən sonra xəstəxananın cərrahiyyə şöbəsinə tibb bacısı vəzifəsinə keçirilmiş və altı aylıq anesteziya və reanimatologiya kursuna göndərilmişdir. Bir müddət cərrahiyyə şöbəsində çalışmış, yenidən laboratoriya şöbəsinə böyük laborant vəzifəsinə keçirilmişdir. Kliniki, biokimyəvi, seroloji laboratoriya kurslarında təkmilləşmişdir. Qiyabi təhsil aldıqdan sonra bir il laboratoriya həkimi işləmiş sonra həmin laboratoriyaya müdir vəzifəsinə təyin olunmuş və beş il bu vəzifədə çalışmışdır. İki il tədris-istehsalat kombinatında IX-X siniflərə tibb bacısı kursunu tədris etmiş və daha sonra Maştağa Mədəniyyət Evindəki ikillik tibb kursunu aparmışdır. Xəstəxanada işlədiyi on yeddi il ərzində dəfələrlə müdiriyyətin, rayon səhiyyə şöbəsinin, rayon icraiyyə komitəsinin və rayon komsomol komitəsinin fəxri fərmanları ilə təltif edilmişdir. Beş il xəstəxana komsomol təşkilatının katibi, daha sonra həmkarlar təşkilatının sədri vəzifələrində çalışmışdır. İşlədiyi müddətdə bir sıra qəzet və jurnallarda elmi-publisistik, tibbi-bioloji yazıları, habelə elmi hekayələri çap olunmuşdur. Hal-hazırda Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda böyük elmi işçi vəzifəsində çalışır, elm tarixi ilə məşğuldur.

* * *

Qarabağ münaqişəsi başlandıqda hərəkata qoşulmuş, bir sıra qadın təşkilatlarında qaçqınlarla iş aparmış, bir sıra yardımların

təşkilində iştirak etmiş, dəfələrlə cəbhə bölgələrinə getmiş, qaynar nöqtələrdə belə, əsgərlərlə görüşmüş, bir müddət könüllü hərbi qospitalda laboratoriya həkimi kimi çalışmışdır. Həmin müddətdə müxtəlif qəzetlərdə vətənpərvərlik mövzusunda onlarla publisistik məqalələri çap olunmuş, «Maştağadan Qarabağa bir yol vardı gedərgəlməz» adlı kitabını yazmışdır. 1992-ci ildə ikillik Jurnalist Sənətkarlığı İnstitutunu bitirmiş və 1993-cü ildə Azərbaycan Jurnalistlər Birliyinə üzv qəbul olunmuşdur. Maştağa Mədəniyyət Eivndə Gənc jurnalistlər dərnəyi təşkil etmiş və onun rəhbəri olmuşdur. «Murovdağ», «Paklıq» və «Vətən həsrəti» qəzetlərində müxbir işləmişdir. Sonralar "Respublika" qəzetinin əməkdaşı olmuşdur. 2008-2009-cu illərdə "Yazıçı qadın" jurnalının baş redaktor müaini olmuş, hal-hazırda «Paklıq» qəzetinin baş redaktorudur.

* * *

Sona Xəyal 12 yaşından şeir, 14 yaşından hekayə yazmağa başlayıb. 1987-ci ildə Maştağa Mədəniyyət Evində Novruz Gəncəlinin təşkil etdiyi Səməd Vurğun poeziya klubunun üzvü olub və həmin il «Azərbaycan gəncləri» qəzetində Novruz Gəncəlinin «Yaradıcılıq iradə tələb edir» adlı «Uğurlu yolu» ilə birlikdə ilk şeiri dərc olunub.

1993-cü ildə «Aç qapını gəlim, dünya» adlı ilk şeirlər kitabı çap olunub. Həmin il Maştağa Mədəniyyət Evində «Maştağa şairlər məclisi»ni təşkil edib, məclisin sədri olub. 1994-cü ildə «Məcməüşşüəra» ədəbi məclisinin üzvü olub və elə həmin ilin dekabrında Hacı Maillə birlikdə «Füzuli ədəbi məclisi»ni təşkil edib, məclisin katibi olub. 1995-ci ildə Füzuli məclisinin nəzdində Maştağa qəsəbəsində «Şəfai», Bakıxanov qəsəbəsində «Qüdsi» və I Zabrat qəsəbəsində «Vahid» ədəbi məclislərini təşkil edib. 1996-cı ildə Məhəməd Füzuli adına Əlyazmalar İnstitutuna işə qəbul olunub və XIX əsrin dəyərli şairlərindən «Mirzə Əbdülxaliq Yusifin həyat və yaradıcılığı» mövzusunda namizədlik işi yazıb. Sonralar II Zabrat qəsəbəsində Mədəniyyət Evində «Yusif» ədəbi məclisini təşkil edib və ona rəhbərlik edib. Hacı Mailin vəfatından sonra Füzuli ədəbi məclisini bərpa edib. Amma məclis davam etməyib. 2000-ci ildə ustadına

verdiyi sözə əməl edərək «Divan» bağlayıb. 2005-ci ildə həmin divandan seçilmiş 101 qəzəl daxil edilmiş «Qəzəllər» kitabı nəşr olub. Nəhayət: Maştağada «Bakı şairlər məclisi»ni yaradıb, əruz vəznli şeirin inkişafı üçün bakılı şairləri bir araya gətirmək istəyib, yenə alınmayıb, bir müddətdən sonra məclis dağılıb. Bütün bunlardan sonra məclislərdən yığışıb. Əlyazmalar İnstitutunda ciddi tədqiqat işi ilə məşğul olmağa başlayıb. Bir-birinin ardınca bakılı şairlərin şeir kitablarını nəşrə hazırlayıb və klassik şeirlə bağlı iyirmiyə yaxın təlif və tərtib kitabları nəşr olunub. Qəzet və jurnallarda, eləcə də konfrans materiallarında klassik şeirlə bağlı iki yüzdən artıq məqaləsi çap olunub.

* * *

1993-98-ci illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində axşam, 2004-06-cı illərdə Bakı Slavyan Universitetinin magistiraturasında qiyabi təhsil alıb, 1997-98-ci dərs ilində 255 saylı orta məktəbdə biologiya və dil-ədəbiyyat fənlərini tədris edib.

1998-ci ildə Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul edilib. Yazıçıların XI qurultayına nümayəndə, qurultaydan sonrakı plenumda Yazıçılar Birliyinin «İrs» komissiyasının sədri seçilib. Altı il müasir ədəbiyyatın tədqiqi ilə məşğul olub və «Müasirlərim» seriyasından iyirmidən artıq monoqrafiya yazıb. Yaradıcılığı bir sıra mükafat və diplomlarla qiymətləndirilib. Dövri mətbuatda çağdaş yazıçılar haqqında məqalələrlə çıxış edib. «İrs» komissiyasının işi kimi dünyasını dəyişmiş şairlərlə bağlı xatirə kitabları və «Yüzilliklər» silsiləsindən toplular üzərində çalışır.

2003-cü ildə Akademiyada qadın alimləri birləşdirən və onların elmi fəaliyyətinin tədqiqi və təbliği ilə məşğul olan «Nigar» elmi-ədəbi məclisini yaradıb, hal-hazıra qədər onun sədridir. 2009-cu ildə «Gənc qələm» ədəbi birliyini yaratmışdır. 2011-ci ildə "Ziyalı qadınlar məclisi"ni yaradıb, onun sədridir.

# MÜNDƏRİCAT

Müəllifdən........................................................................... 3
Şuşa bayraqdarını gözləyir.......................................................... 5
Oynamağım gəlmir axı... ........................................................ 29
Gülək...ya düşünək................................................................. 36
Yaradanla söhbət.................................................................... 37
İtirdiklərimiz qayıidacaq........................................................... 39
Özümüzə qayıdanda................................................................ 39
Ad günün mübarək.................................................................. 40
Bəhri-təvillər.......................................................................... 41
Qəlbin əlacı............................................................................ 41

*S a r a l m ı ş   v ə r ə q l ə r* ................................................ 42
Ömrün bir ili .......................................................................... 42
İnsan - inam .......................................................................... 43
Xoşbəxtlik.............................................................................. 44
Mən kimə acıyıram ................................................................. 44
Ölüm ..................................................................................... 45
Qəlbin səsi.............................................................................. 45
Neyləyirəm............................................................................. 45
Çünki sən anasan..................................................................... 46
Oxşar taleyimiz ....................................................................... 46
Susmaq hörmət deyil .............................................................. 47
Səni xatırlayıram..................................................................... 47
Nənəmə .................................................................................. 47
Həqiqət................................................................................... 48
Baxiram düşünürəm................................................................ 48

Borc ver........................................................................................ 49
Məhəbbətin hökmü ...................................................................... 50
Susma.......................................................................................... 50
Dönmə.......................................................................................... 51
Əlçatmaz səadət ........................................................................... 52
Dərində böyük gəmilər üzür ......................................................... 52
Elə bilirdim... ................................................................................ 53
Ləyaqət........................................................................................ 54
Olsaydin ...................................................................................... 54
Nələr verdin, nələr aldın ................................................................ 54
Kiminsə ....................................................................................... 55
Həyat dərdi çəkə bilənə yükləyir .................................................. 55
Kimdir günahkar ........................................................................... 56
Yadındamı.................................................................................... 57
Xatirə şəkil .................................................................................. 57
Xəyaldan həqiqətə......................................................................... 58
Cənnətdən cənnətə ........................................................................ 59
Beş yüz ildir ................................................................................. 60
Uşaq kimi ..................................................................................... 61
Onu göylər çağırırdı...................................................................... 62

***Ş e i r l ə r*** ................................................................................ 63

Sona Xəyalın qısa tərcümeyi-halı ................................................. 75

**SONA XƏYAL**

# ŞUŞA BAYRAQDARINI GÖZLƏYİR


Naşir: *Rafiq Xan-Sayad oğlu*
Korrektor: *Nuranə Axundzadə*
Texniki redaktor: *Ülvi Arif*
Dizaynerlər: *İradə Əhmədova, Ceyhun Əliyev*
Operator: *Rübabə Vəliyeva*

Yığılmağa verilib: 15.12.2011
Çapa imzalanıb: 30.12.2011
Ş.ç.v. 5,5, tiraj 300
«MBM» mətbəəsində çap olunub.